# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

2 dekabr
2025-ci il,
çərşənbə axşamı
№ 219 (7046)
Qiymәti
60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# ATƏT-in Minsk qürubu

## Bakının hərbi qələbəsinin siyasi təsdiqi...




Bax səh. 2

## Bir güllə atılmadan...

### Laçın yeni tarixini yaşayır



Bax səh. 3

# 12-ci görüş...

Bax səh. 2

## “OPEC” və “OPEC+” anlaşdı

Noyabrın 30-da Neft İxrac Edən Ölkələrin Təşkilatına (“OPEC”) üzv və qeyri-üzv ölkələrin (“OPEC+”) nazirlərinin 40-cı iclası keçirilib. Tədbirdə qlobal neft bazarındakı vəziyyət, hasilat səviyyələri və kompensasiyaların yerinə yetirilməsinə dair müzakirələr aparılıb. İclas zamanı qlobal neft bazarındakı vəziyyət, hasilat səviyyələri və kompensasiyaların yerinə yetirilməsinə dair müzakirələr aparılıb.

Azərbaycanın energetika naziri Pərviz Şahbazovun təmsil olunduğu iclasda tərəfdaş ölkələr dünya bazarında baş verən son fraqmentasiyalar, geosiyasi mürəkkəbliklər, neft istehlakında dəyişmələr, ABŞ-ın sərt ticarət tətbiqləri və digər amillərin neft bazarına təsiredici rol oynadığını istisna etməyib. OPEC-in baş katibi Haysam əl-Qaysın qənaətinə görə, 2025-ci ilin əvvəlindən formalaşan qlobal iqtisadi meyillər dünya üzrə xammal bazarlarına da təsirsiz qalmayıb, il ərzində əmtəə qiymətlərində enmə tendensiyası müşahidə olunub. Bu situasiyaların növbəti ildə də davam edəcəyi istisna olunmur.

**Dünya iqtisadiyyatında zəifləmə neftə tələbi azaldır**

Qeyd edək ki, son aylarda qlobal bazarlarda xam neftə olan tələb azalmaqda davam edir. Buna müxtəlif ölkələrdə iqtisadi fəallığın azalması, o cümlədən ABŞ və Avropa İttifaqında sənaye və enerji sektorunda işgüzarlığın zəifləməsi, qlobal bazarın ən nəhəng istehlakçısı olan Çində gözləniləndən daha az xam neft tələbinin qeydə alınması, bərpa olunan enerjiyə keçidin sürətlnməsi də digər faktorlar təsir göstərməkdədir. Beynəlxalq Enerji Agentliyinin (IEA) gözləntilərinə görə, Avropa ölkələrində, o cümlədən əsas iqtisadi güc olan Almaniyada neft tələbi sutkada 100 min barelə yaxın azalıb, ABŞ-da istehsal fəaliyyəti cari ilin ötən aylarında ardıcıl olaraq aşağı düşüb. Bu tendensiyasnın 2025-cü ilin son ayında və növbəti ilin ilk rübündə də davam edəcəyi gözlənilir...

Bax səh. 3



Bax səh. 4

## YAP-ın beynəlxalq əlaqələri genişlənir

## Yerli festivaldan qlobal brendə

Bax səh. 5

## Moskvadan öncə Floridada

Bax səh. 7

## Bakı Bəyannaməsi

Bakıda keçirilən Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının (“WTDC-25”) yekunlarına əsasən, üzv dövlətlər rabitə əlçatanlığının təmin edilməsi üzrə qlobal yol xəritəsinin qəbul edilməsi barədə razılığa gəlib. Sənəddə Beynəlxalq Telekommunikasiya İttifaqının rəqəmsal inkişaf sahəsində gələcək işini müəyyən edən yenilənmiş yeni qətnamələr, həmçinin təşkilatın Telekommunikasiya İnkişafı Sektoru üçün tövsiyələr əks olunub. Həmçinin yekun razılaşma sənədində inkişaf etməkdə olan ölkələrin, kifayət qədər bağlantısı olmayan regionların və həssas əhali qruplarının ehtiyaclarına xüsusi diqqət yönəldilməsi barədə öhdəliklər də nəzərə alınıb. Ümumilikdə, sənəd üzv ölkələrin rəqəmsal inkişafında meydana çıxan problemlərini həll etməyə yönəlmiş yeni təşəbbüslərin həyata keçirilməsi üçün vahid strateji məqsəd və prinsipləri özündə birləşdirməklə birgə tərəfdaşlığın çərçivəsini müəyyən edir.

Tədbir çərçivəsində qəbul olunan qətnamələr radiotezliklərin idarə olunması, kibertəhlükəsizlik, rəqəmsal inklüzivlik, İKT-nin tətbiqi və tənzimlənməsi, innovasiya və ucqar ərazilərdə rəqəmsal texnologiyaların istifadəsi kimi müxtəlif sahələri əhatə edib. Konfransın əsas yekun sənədi olan Bakı Fəaliyyət Planı telekommunikasiya və informasiya-kommunikasiya texnologiyaları vasitəsilə insan mərkəzli rəqəmsal inkişafın əsas istiqamətlərini müəyyən edir. Plan xüsusilə inkişaf etməkdə olan ölkələr, rəqəmsal xidmətlərə məhdud çıxışı olan icmalar və həssas əhali qruplarının ehtiyaclarını prioritet olaraq önə çıxarır. Hazırda dünyada təxminən 2 milyarddan artıq insan internetə qoşula bilmir. 2026-2029-cu illəri əhatə edən dördillik plan inklüziv və dayanıqlı rəqəmsal gələcək üçün universal, faydalı və əlçatan internet bağlantısının inkişaf etdirilməsinə dəstək verəcək.

Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) baş katibi Dorin Boqdan-Martin vurğulayıb ki, Bakı Bəyannaməsi və Fəaliyyət Planı heç kimi diqqətdən kənarda qoymamaqla...

Bax səh. 5

## Rusiya FTX-nin Əli Kərimliyə sifarişi: Saleh Rüstəmli vasitəçilik edib

Bax səh. 6

## Paşinyan II Qaregini bitirir?



Bax səh. 7

## Müxalifətin makiyajsız çöhrəsi...

Bax səh. 6

# ATƏT-in Minsk qürubu

## Bakının hərbi qələbəsinin siyasi təsdiqi...

Vətən müharibəsində qazandığımız qələbə siyasi cəhətdən tam təsdiqləndi - artıq bütün dünya Qarabağ adlı münaqişə olmadığını təsdiqləyir, bu münaqişənin tarixə qovuşduğunu etiraf edir. Belə ki, Azərbaycan və Ermənistanın ATƏT-in Finlandiya Sədrliyinə birgə müraciətindən sonra təşkilat Nazirlər Şurasının 2025-ci il sentyabrın 1-də qəbul edilmiş qərarına uyğun olaraq 2025-ci il noyabrın 30-da saat 23:59-da Minsk Prosesi və onun əlaqədar strukturlarının bağlanmasını yekunlaşdırıb. Bu barədə ATƏT-in bəyanatında bildirilib. Qeyd edilib ki, bütün zəruri inzibati prosedurların başa çatdırılması bağlanma prosesinin başa çatması deməkdir. Bu proses 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın imzaladığı və ABŞ Prezidenti Donald Trampın da şahidi olduğu tarixi Birgə Bəyannamənin ardınca ATƏT-in bütün 57 iştirakçı dövlətinin 1 sentyabr tarixli konsensus qərarını həyata keçirdi.

ATƏT-in Minsk Qrupunun fəaliyyətinin və strukturlarının tam şəkildə ləğv olunması Azərbaycanın 30 ildən artıq davam edən siyasi və diplomatik mübarizəsinin məntiqi yekunu kimi dəyərləndirilməlidir. Bu addım yalnız bir institutun formal olaraq fəaliyyətini dayandırması deyil, eyni zamanda, regionda yaranmış yeni reallıqların beynəlxalq səviyyədə təsdiqi mənasına gəlir. Minsk Qrupu uzun müddət ərzində münaqişənin həlli üçün mandat daşımış, lakin faktiki olaraq nəticə əldə etməmişdi. Azərbaycanın 2020-ci il qələbəsi, daha sonra isə suverenliyinin tam bərpası bu strukturun artıq gərəksiz olduğunu bir daha ortaya qoydu. İndi ATƏT-in rəsmi qərarı həmin geosiyasi reallığın hüquqi-siyasi təsdiqidir. Bu həm də onu göstərir ki, Cənubi Qafqazda sülh və təhlükəsizlik modelini artıq Azərbaycanın qətiyyəti müəyyən edir - beləliklə, Minsk Qrupunun ləğvi Azərbaycanın diplomatik qələbəsinin növbəti mərhələsi olmaqla yanaşı, beynəlxalq institutların da yeni şərtlərə uyğunlaşmasının vacibliyini ortaya qoyur.

### Vasitəçi olaraq yaradıldı, həll yarada bilmədi...

Minsk Qrupu 1990-cı illərin əvvəllərində regionda gərginliyi azaltmaq və siyasi həll mexanizmi yaratmaq üçün təsis edilmişdi. Lakin illər ərzində bu qurum prosesin moderatorundan daha çox, onun dondurulmasına xidmət edən passiv format kimi yadda qaldı. Həm həmsədrlərin maraqlarının toqquşması, həm də Ermənistanın prosesdən sui-istifadəsi nəticəsində qurum heç bir konkret nəticə ortaya qoya bilmədi.

SSRİ-nin dağılması ilə müstəqillik əldə edən Ermənistan və Azərbaycan 30 yanvar 1992-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM 1995-ci ildən etibarən Avropada Təhlükəsizlik və əməkdaşlıq Təşkilatı və ya ATƏT adlandı) işinə qoşulublar. Qrupun tarixi ATƏM-in Xarici İşlər Nazirləri Şurasının 24 mart 1992-ci il tarixlində Helsinkidə keçirilmiş görüşündən başlayır. Həmin görüşdə regiondakı vəziyyət müzakirə olunmuş, ATƏM-in Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair Minsk konfransının çağırılması haqqında qərar qəbul edilmişdi. Minsk Qrupunun əsası isə 1994-cü ildə keçirilən ATƏM-in Budapeşt Zirvə toplantısı zamanı qoyuldu. Həmin toplantıda Ermənistan-Azərbaycan münaqişəsinə dair Budapeşt sammitinin işinin konkret yekunu olaraq "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" adlı qərar qəbul olunub. Budapeşt Sammitinin nəticələrinə əsasən, 20 dekabr 1994-cü ildə Vyanada Ermənistan-Azərbaycan münaqişəsi üzrə ATƏT-in üzv ölkələrinin təyin etdiyi hərbi nümayəndələrdən ibarət Yüksək Səviyyəli Planlaşdırma Qrupu (YSPQ) təsis olunub. 28 avqust 1995-ci ildə isə ATƏT-in Fəaliyyətdə olan Sədrinin ATƏT-in Minsk Konfransının müzakirəsində olan münaqişə üzrə Şəxsi Nümayəndəsi (ŞN) vəzifəsi təsis olunub. 1 yanvar 1997-ci ildən ATƏT-in Minsk prosesinə Həmsədrlər qismində ABŞ, Rusiya və Fransa başçılıq ediblər.

Azərbaycan isə bütün bu dövr ərzində həm diplomatik mübarizəni davam etdirdi, həm də öz hərbi-siyasi gücünü gücləndirdi. 2020-ci il qələbəsi göstərdi ki, problemin həllinin real açarı beynəlxalq mexanizmlərdə deyil, Azərbaycanın öz iradəsindədir. Suverenliyin 2023-cü ildə tam bərpası isə Minsk Qrupunun vasitəçilik modelinin sona çatdığını rəsmiləşdirir.




### Vaşinqton prosesinin rolu...

Bu prosesdə Vaşinqton görüşünün rolu danılmazdır. Avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin, ABŞ Prezidenti Donald Trampın və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın görüşü çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsini paraflamaqla yanaşı ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciəti də imzalayıblar. Bu müraciət ATƏT-in Minsk Prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsinin və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə idi. Qərarın verilməsi isə sülh yolunda ən mühüm addımlardan biri kimi tarixə yazıldı. Bu, həm də Azərbgaycanın bölgədə formalaşdırdığı yeni arxitekturanın real təsdiqi idi...

### Laçının azad edildiyi gün Minsk Qrupu tarixə qovuşdu

Minsk Qrupunun fəaliyyətinin rəsmi olaraq sona çatması Azərbaycanın regiondakı təşəbbüslərinin gücləndirilməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir. Post-münaqişə dövründə Bakı həm regional nəqliyyat layihələrində, həm enerji təhlükəsizliyində, həm də sülh danışıqlarında əsas söz sahibinə çevrilib. Ermənistanla aparılan sülh prosesi bir daha göstərdi ki, vasitəçilərin iştirakı deyil, birbaşa dialoq real nəticə gətirir. Azərbaycanın "region ölkələri arasında əməkdaşlıq" modelini irəli sürməsi də bu yeni tendensiyanın davamıdır. Minsk Qrupunun ləğvi Bakının suveren sülh təşəbbüslərinin beynəlxalq səviyyədə qəbul olunduğunu göstərir. Artıq heç bir xarici format Cənubi Qafqazın siyasi gündəmini müəyyən etmir; proseslərin mərkəzində Azərbaycan dayanır.

Beləliklə, ATƏT-in Minsk Qrupunu tam şəkildə ləğv etməsi yalnız texniki qərar deyil, Azərbaycanın uzun illər apardığı mübarizənin qalibiyyətlə başa çatmasının siyasi təsdiqidir. Bu addım həm 2020-ci ildə əldə olunan qələbənin, həm də 2023-cü ildə suverenliyin tam bərpasının beynəlxalq legitimləşməsi kimi qiymətləndirilməlidir. Artıq Cənubi Qafqazda yeni reallıq formalaşıb və bu reallığı müəyyən edən əsas aktor Azərbaycan dövlətidir.

### Laçının azad edildiyi gündə...

Əsas məqamlardan biri isə bu qərarın Laçın rayonunun işğaldan azad edilməsinin 5-ci ildönümü gününə təsadüfi etməsidir. Bu bir daha onu göstərir ki, ədalət mütləq məna daşıyan bir dəyərdir - bu səbəbdəndir ki, məhz Laçının azad edildiyi gündə ATƏT-in Minsk Qrupu öz fəaliyyətini yekunlaşdırdı. Azərbaycan 2020-ci ildə ədalətin bərpasının son mərhələsini bir güllə atmadan başa çatdırdı - üstündən beş il ötəndən sonra isə bütün dünya bu ədalətin bərpasını siyasi qərarla təsdiq edir...

*Pərviz SADAYOĞLU*

# 12-ci görüş...

## Delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair müvafiq təlimat layihələri müzakirə olunub

Cənubi Qafqazda dayanıqlı sülhün təmin olunması üçün Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması başlıca şərtdir. Artıq bu istiqamətdə davamlı addımlar atılmaqdadır. Prosesə dəstək verən amillərdən biri də ikitərəfli dövlət komissiyalarının fəaliyyətidir.

Ermənistan ilə Azərbaycan arasında müvafiq komissiyalar çərçivəsində baş tutan görüşlər, aparılan müzakirələr və əldə edilən razılaşmalar göstərir ki, üçüncü tərəfin iştirakı olmadan razılıq əldə etmək imkanları daha böyükdür. Bu yöndə nümunələr də ortadadır. Davam edən prosesdə iki ölkənin müvafiq dövlət strukturları arasında birgə açıqlamalar yayılıb, komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə qəbul edilib və s. Münasibətlərin normallaşması prosesində mühüm bir ştrix sayılan sərhədlərin delimitasiyası və demarkasiyasında əldə olunan razılıqlar isə sülh üçün vacib amillər sırasındadır.

### Tərəflər Qəbələdə görüşdülər

Yeri gəlmişkən, noyabrın 28-də Qəbələ şəhərində Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistanın Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 12-ci görüşü keçirilib. Rəsmi məlumata görə, məmnunluqla qeyd olunub ki, komissiyaların 12-ci görüşü tərəflərdən birinin ərazisində - Azərbaycanın Qəbələ şəhərində keçirilir.

Görüş zamanı tərəflər 2025-ci il yanvarın 16-da keçirilmiş 11-ci görüşün yekunları üzrə əldə olunmuş, delimitasiya işləri üzrə kompleks işlərin dövlət sərhədinin şimal sahəsindən başlayaraq Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Gürcüstanın sərhədlərinin qovuşma nöqtəsi ərazisindən cənub istiqamətində, şimaldan cənuba, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının İran İslam Respublikası ilə sərhədinə qədər başlanması barədə razılaşmanı qeyd ediblər.

Tərəflər delimitasiya tədbirləri ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar. Həmçinin delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair müvafiq təlimat layihələri müzakirə olunub.



### Növbəti iclas Ermənistan şəhərlərinin birində olacaq

Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryan qarşılıqlı maraq doğuran məsələlər üzrə ayrıca fikir mübadiləsi aparıblar. Tərəflər növbəti görüşün tarixini iş qaydasında, Ermənistan Respublikasının şəhərlərindən birində müəyyən etmək barədə razılığa gəliblər.

Xatırladaq ki, bu ilin yanvar ayında keçirilən 11-ci görüşdə tərəflər növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xəttinin sahələrinin/hissələrinin ardıcıllığı məsələsi ilə bağlı fikir mübadiləsini davam etdirib və dövlət sərhədinin delimitasiyası üzrə kompleks işlərin şimal sahəsindən başlayaraq Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Gürcüstanın sərhədlərinin qovuşma nöqtəsi ərazisindən cənub istiqamətində, şimaldan cənuba, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının İran İslam Respublikası ilə sərhədinə qədər başlanması barədə razılığa gəlmişdilər. Bu baxımdan, 12-ci görüşdə prosesin davamı ilə bağlı razılığın əldə olunması müsbət haldır.

Qeyd olunduğu kimi, Azərbaycan və Ermənistan birbaşa danışıqlara üstünlük verir. Ötən dövrdə bu istiqamətdə müəyyən pozitiv nəticələr əldə olunub. Belə ki, əldə edilən razılığa uyğun olaraq Qazaxın işğal altında olan 4 kəndi Azərbaycana qaytarılıb. İkitərəfli dialoqun nəticəsi olaraq Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndləri ölkəmizə təhvil verilib. Bütövlükdə, hazırda hər iki tərəf hansısa kənar vasitəçi olmadan sərhədlərin delimitasiyası və demarkasiyası işlərini davam etdirirlər. Bu işlərin nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edilib. Proseslər göstərir ki, Azərbaycanla Ermənistan arasında məsələlərin həllində üçüncü qüvvələrə ehtiyac yoxdur. 12-ci görüşün Azərbaycanın Qəbələ şəhərində keçirilməsi isə etimad quruculuğu yönündə vacib addımlardan biridir. İndiyədək, görüşlərin sərhədyanı ərazilərdə keçirildiyini nəzərə alsaq, budəfəki Qəbələ görüşü təqdirəlayiq haldır.

Göründüyü kimi, uzun illərdən sonra Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunması artıq reallığa çevrilir. Azərbaycanın 2020-ci il Vətən müharibəsində və 2023-cü il antiterror tədbirlərində əldə etdiyi qələbə bölgədə yeni siyasi mənzərə formalaşdırıb. Ermənistan anlayır ki, regional təhdidə çevrilməklə heç nə əldə etməyəcək. Əksinə, Azərbaycanın sülh çağırışlarına adekvat cavab verməklə regional inkişafın bir hissəsinə çevrilmək, bu inkişafdan yararlanmaq perspektivi formalaşdırır. Bunun nəticəsidir ki, son zamanlar Ermənistan ilə Azərbaycan arasında gedən müvafiq danışıqlar müəyyən pozitiv nəticələrə yol açıb. İkitərəfli komissiyaların aktiv şəkildə görüşməsi isə sülh prosesinə mühüm töhfələr qazandıra bilər. Dövlət sərhədlərinin müəyyənləşməsi, delimitasiya və demarkasiyanın həyata keçirilməsi sülh şərtlərindən biri kimi münasibətlərin normallaşmasına xidmət göstərir. Xüsusilə, Vaşinqton razılaşmaları fonunda sülhlə bağlı açıq mətnli fikirlərin səsləndirildiyi bir dövrdə ikitərəfli komissiyaların aktiv işi mövqelərin yaxınlaşmasına əsaslı yol aça bilər.

### Kommunikasiyaların açılması diqqət mərkəzindədir

Vurğulayaq ki, Azərbaycan hər zaman sülhün və beynəlxalq hüququn tərəfdarı kimi çıxış edib. Hətta 30 illik işğal dövründə belə ölkəmiz sülhpərvər mövqedən geri çəkilməyib. İndiki halda, bu istiqamətdə addımların davam etdirilməsi yenə də Azərbaycanın mövqeyinin düzgün olmasını növbəti dəfə sübuta yetirir. İllərdir ki, ikitərəfli təmasların yarada biləcəyi üstünlükləri önə çəkən dövlətimiz bunu əyani şəkildə ortaya qoyur. İndiki mərhələdə isə Ermənistanın atacağı addımlar sülhün daha da tezləşdirilməsinə yol aça bilər. Bu mənada, Ermənistanın konstitusiyasında və digər hüquqi sənədlərində Azərbaycana qarşı iddiaların aradan qaldırılması sülh sazişinin imzalanmasını sürətləndirəcək. Doğrudur, tərəflərin Vaşinqton razılaşmasına əsasən ATƏT-in Minsk qrupunun fəaliyyətinə xitam verilib, lakin Ermənistan öz konstitusiyasında dəyişiklikləri də yubatmamalıdır. Çünki Azərbaycana qarşı ərazi iddialarına rəsmi olaraq son qoyulması sülhün başlıca şərtidir.

Digər tərəfdən, müvafiq komissiyaların fəaliyyəti regional kommunikasiyaların açılmasını da özündə ehtiva edir. Bu danışıqlar nəticə etibarı ilə regional kommunikasiya əlaqələrinin yenidən bərpası perspektivi yaradır - regional səviyyədəki əməkdaşlıqlar yeni mərhələdə hətta qlobal inkişaf konsepsiyasının aparıcı coğrafi indeksi kimi müəyyənləşə bilər. Bu fakt qarşılıqlı inteqrasiyanı gücləndirən amil kimi çıxış etməklə yanaşı, regionun təhlükəsizliyinin, sülhün və sabitliyin daha yüksək səviyyədə təminatının qarantı kimi çıxış edir. Bəllidir ki, Azərbaycan Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırır və hazırda bu geniş coğrafiyanın bütün əsas yolları məhz ölkəmizdə kəsişir. Ermənistan ilə Azərbaycan kommunikasiya qovşağının açılması, nəqliyyat imkanlarının gerçəkləşməsi yeni və çox mühüm gələcək vəd edir. Bu, xüsusilə Ermənistan üçün olduqca vacibdir. Dəhliz imkanları Ermənistana dəmir yolu xətti vasitəsilə dünyaya çıxmaq kimi bir üstünlük vəd edir.

Vaşinqtonda əldə edilən razılaşmalar kommunikasiyaların, yəni Zəngəzur dəhlizinin açılacağına ümidləri artırır. Bunun üçün Ermənistan praktiki addımlar ataraq prosesi sürətləndirməlidir.

*Nardar BAYRAMLI*

# Bir güllə atılmadan...

## Laçın yeni tarixini yaşayır

Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərə böyük mənəvi bağlılığı var. Biz düz 30 il o torpaqların xiffətini çəkmişik, əcdadlarımızın ruhu dolaşan yurd yerlərimizə qayıtmağın həsrəti ilə yaşamışıq. Müzəffər Ordumuzun 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazandığı parlaq qələbələr bu həsrətimizə son qoydu. Artıq ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olunub.

Son beş ildə işğaldan azad olunmuş bütün ərazilər böyük quruculuq-abadlıq meydanına çevrilib. Göz önündə yeni bir Qarabağ formalaşır - bu ərazilərdə müasir şəhər və kəndlər salınır, iş yerləri yaradılır, tarixi abidələr bərpa olunur. Bütün bunları, həmçinin üçtərəfli Bəyanata uyğun olaraq bir güllə atılmadan azadlığına qovuşmuş Laçın rayonunun timsalında da izləmək mümkündür.



### Kədərli işğal illəri

Azərbaycanın füsunkar guşələrindən biri olan Laçın rayonu ölkəmizin cənub-qərbində, Kiçik Qafqazda yerləşir. Rayonun ərazisi şimaldan Kəlbəcər, cənubdan Qubadlı, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. Çox təəssüf ki, bu rayonun əhalisi də işğalın ağır fəsadlarını yaşayıb. 1992-ci il mayın 18-də uca dağlar qoynunda qərar tutan və alınmaz qala sayılan Laçın rayonunun, 1993-cü ilin aprelində isə Kəlbəcərin işğal altına düşməsi ilə düşmən öz istəyinə çatdı. Belə ki, sözügedən rayonların işğal altına düşməsi nəticəsində Ermənistanla keçmiş Dağlıq Qarabağ arasında birbaşa əlaqə təmin olundu.

İşğal altına düşənədək Laçın zəngin təbii sərvətləri, maldarlığın inkişafı üçün geniş imkanları olan bir diyar kimi tanınırdı. İşğal illərində ermənilər Laçında misli görünməmiş vandalizm əməlləri törədiblər və təbii sərvətlərimizi vəhşicəsinə talayıblar. Laçının süqutu doğma Azərbaycanımızın 1835 kvadratmetr ərazisinin, 13745 fərdi yaşayış evinin, 48 sənaye, 63 kənd təsərrüfatı obyektinin, 101 məktəbin, 5 məktəbdənkənar, 2 məktəbəqədər müəssisənin, 142 səhiyyə, 217 mədəni-maarif, 460 ticarət obyektinin, 30 rabitə qovşağı, peşə məktəbi, xalq teatrı, tarix-diyarşünaslıq muzeyinin itirilməsi, on minlərlə ailənin faciəsi ilə nəticələndi. Ümumi ziyan 7,1 milyard ABŞ dollarına bərabərdir. Rayonda 1992-ci ildə olan 58227 nəfər əhali respublikanın 59 rayon və şəhərində məskunlaşıb. İşğal nəticəsində 267 nəfər laçınlı öldürülüb, 66 nəfər girov götürülüb.

### İnsanlar doğma yurdlarına qayıdırlar

Qalib Azərbaycan ərazi bütövlüyünə hərbi-siyasi yolla nail olub. Üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq Ağdamın, Kəlbəcərin və Laçının bir güllə atılmadan respublikamıza təhvil verilməsi ilə Ordumuzun döyüş meydanında qazandığı şanlı zəfərlər diplomatiya müstəvisində də təsdiqini tapmış oldu. İndi Laçın yeni tarixini yaşayır.

Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə təsdiq edilən Böyük Qayıdışla bağlı 2022-2026-cı illəri əhatə edən Dövlət Proqramı işğaldan azad edilmiş torpaqlarımıza yenidən həyatın qaytarılmasında mühüm rola malikdir. Proqramın əsas hədəfi ilk beşillikdə 34 min 500 ailəni azad edilmiş ərazilərə köçürməkdir. Bu istiqamətdə sistemli tədbirlər həyata keçirilməkdədir. Zəngilanın Ağalı kəndi Böyük Qayıdışın ilk ünvanı oldu.

Artıq işğaldan azad olunmuş digər ərazilərin sakinləri kimi, laçınlılar da doğma yerlərə köç etməyin sevincini bölüşürlər. Bura ilk köç 2023-cü ilin may ayında reallaşıb. Birinci mərhələdə şəhərə 20 ailə, yəni 97 nəfər köçürülüb. Laçına ilk köç karvanı Bakı şəhərinin Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış “Qobu park 3” yaşayış kompleksindən yola salınıb. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına əsasən, ilkin mərhələdə köçürülən ailələr, əsasən, Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda ən ağır şəraitdə yaşayanlar arasından seçilib. Onlar Laçın şəhərində işğaldan əvvəl yaşadıqları və işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında aparılan təmir-bərpa işləri nəticəsində tamamilə yenilənmiş və zəruri yaşayış şəraitinin yaradıldığı evlərdə məskunlaşıblar.

Sonrakı mərhələdə Laçına daha bir neçə köç karvanı yola salınıb. Bütövlükdə, birinci mərhələdə Laçıda 4 min insanın məskunlaşdırılması nəzərdə tutuluvb.



### Azad ərazilərdə üçüncü hava limanı

Yaşayış məntəqələrinin məskunlaşdırılması ilə paralel şəkildə, Laçında həmçinin zəruri infrastruktur qurulur. Qısa müddətdə burada əhalinin elektrik enerjisinə tələbatını ödəyəcək bir neçə elektrik stansiyası işə salınıb. Müasir yollar çəkilir, tunel və körpülər tikilməkdədir. Bu layihələrin arasında hava limanının inşası xüsusilə mühüm strateji əhəmiyyət daşıyır. Laçın Beynəlxalq Hava Limanının açılış mərasimi 2025-ci il 28 may tarixində Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutub. Bunadək işğaldan azad olunmuş ərazilərdə müasir standartlara cavab verən Füzuli və Zəngilan Beynəlxalq Hava limanları inşa olunmuşdu. Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi ilə Azərbaycanın beynəlxalq hava limanlarının sayı doqquza çatıb.

Tikintisinə 2021-ci ilin avqust ayında başlanılmış bu mühüm infrastruktur obyektinin inşası ən yüksək texnoloji və mühəndislik standartlarına uyğun həyata keçirilib. Qeyd edək ki, hava limanının təməli 2021-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub.

Hava limanında istənilən tip hava gəmisinin qəbuluna imkan verən, uzunluğu 3 min, eni isə 60 metr olan uçuş-enmə zolağı inşa edilib. Beş min kvadratmetrlik terminal binası saatda ən azı 200 sərnişinə xidmət göstərmək imkanına malikdir.

Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşən hava limanının ümumi ərazisi 130 hektardan çoxdur. Bu hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportudur. Laçın şəhərindən 30 kilometr, Şuşadan 70 kilometr, Kəlbəcərdən isə 60 kilometr məsafədə yerləşən hava limanı Qarabağ və Şərqi Zəngəzur regionlarının nəqliyyat əlaqələrinin gücləndirilməsində mühüm rol oynayacaq.



### Əhalinin məşğulluğunun təmin edilməsi diqqət mərkəzində saxlanılır

İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış proqramında əsas hədəflərdən biri də bura köçən əhalinin məşğulluğunun təmin edilməsidir. Bu məsələ Laçın rayonunda da diqqət mərkəzində saxlanılır. İndiyədək burada rayonun iqtisadi potensialı və əmək ənənələri nəzərə alınmaqla bir neçə yeni müəssisə işə salınıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2023-cü il avqustun 26-da açılışı olmuş “Laçın Aqro-Sənaye Parkı” fəaliyyətini genişləndirir. Rayonun Zerti kəndində yerləşən parkda artıq 12 müəssisə fəaliyyət göstərir.

Cari il mayın 27-də Prezident İlham Əliyev sənaye parkında daha bir müəssisənin - “LATIFA” Laçın tikiş fabrikinin açılışında iştirak edib. Fabrikin ümumi dəyəri 1,2 milyon manatdır. Burada gündə 2 min ədəd tekstil məhsulu istehsal olunacaq. Buraya ev tekstili, idman dəstləri, eksklüziv geyimlər və digər məhsullar daxildir.

“Laçın Aqro-Sənaye Parkı”nda İlham Əliyevin iştirakı ilə cari il mayın 27-də açılış tədbiri keçirilən müəssisələrdən biri də “PIRSHAGHI” ayaqqabı fabrikinin Laçın filialıdır. Ümumi dəyəri 367,9 min manat olan müəssisə kişi, qadın və uşaqlar üçün ayda 1500 cüt ayaqqabı istehsal etmək gücündədir. Müasir avadanlıqlarla təchiz olunmuş fabrikdə idman və klassik üslubda ayaqqabılar istehsal ediləcək. Müəssisə daxili bazarda satış həyata keçirməklə yanaşı, istehsal etdiyi məhsulları Avropa ölkələrinə ixrac etməyi də planlaşdırır.

*Mübariz FEYİZLİ*

# “OPEC” və “OPEC+” anlaşdı

## Neft ixrac edən ölkələr qiymətlərin sabit saxlanılması barədə razılığa gəlib

Noyabrın 30-da Neft İxrac Edən Ölkələrin Təşkilatına (“OPEC”) üzv və qeyri-üzv ölkələrin (“OPEC+”) nazirlərinin 40-cı iclası keçirilib. Tədbirdə qlobal neft bazarındakı vəziyyət, hasilat səviyyələri və kompensasiyaların yerinə yetirilməsinə dair müzakirələr aparılıb. İclas zamanı qlobal neft bazarındakı vəziyyət, hasilat səviyyələri və kompensasiyaların yerinə yetirilməsinə dair müzakirələr aparılıb.

Azərbaycanın energetika naziri Pərviz Şahbazovun təmsil olunduğu iclasda tərəfdaş ölkələr dünya bazarında baş verən son fraqmentasiyalar, geosiyasi mürəkkəbliklər, neft istehlakında dəyişmələr, ABŞ-ın sərt ticarət tətbiqləri və digər amillərin neft bazarına təsiredici rol oynadığını istisna etməyib. OPEC-in baş katibi Haysam əl-Qaysın qənaətinə görə, 2025-ci ilin əvvəlindən formalaşan qlobal iqtisadi meyillər dünya üzrə xammal bazarlarına da təsirsiz qalmayıb, il ərzində əmtəə qiymətlərində enmə tendensiyası müşahidə olunub. Bu situasiyaların növbəti ildə də davam edəcəyi istisna olunmur.

**Dünya iqtisadiyyatında zəifləmə neftə tələbi azaldır**

Qeyd edək ki, son aylarda qlobal bazarlarda xam neftə olan tələb azalmaqda davam edir. Buna müxtəlif ölkələrdə iqtisadi fəallığın azalması, o cümlədən ABŞ və Avropa İttifaqında sənaye və enerji sektorunda işgüzarlığın zəifləməsi, qlobal bazarın ən nəhəng istehlakçısı olan Çində gözləniləndən daha az xam neft tələbinin qeydə alınması, bərpa olunan enerjiyə keçidin sürətlnməsi də digər faktorlar təsir göstərməkdədir. Beynəlxalq Enerji Agentliyinin (IEA) gözləntilərinə görə, Avropa ölkələrində, o cümlədən əsas iqtisadi güc olan Almaniyada neft tələbi sutkada 100 min barelə yaxın azalıb, ABŞ-da istehsal fəaliyyəti cari ilin ötən aylarında ardıcıl olaraq aşağı düşüb. Bu tendensiyasnın 2025-cü ilin son ayında və növbəti ilin ilk rübündə də davam edəcəyi gözlənilir. Beynəlxalq Valyuta Fondunun və qlobal enerji agentliklərinin proqnozlarına görə, dünya iqtisadiyyatında yavaşlama tələbin azalmasını təşviq edəcək. Bu isə orta qiymət əmsalının 60-62 dollar çərçivəsində qalmasına səbəb olacaq. Ancaq bu qiymət dəhlizi “OPEC+” ölkələri üçün qanedici hesab edilmir.



İclasda son aylarda qlobal bazarlarda baş verən tendensiyaların və siyasi amillərin də qiymətlərə təsir imkanları istisna edilməyib. Vurğulanıb ki, ABŞ-ın Rusiyanın “Lukoil” və “Rosneft” şirkətlərinə qarşı tətbiq etdiyi sanksiya qiymətlərin kəskin şəkildə aşağı düşməsinə səbəb olmadı. Bunun səbəbi 8 ölkənin (Səudiyyə Ərəbistanı, BƏƏ, Qazaxıstanın, Rusiyanın, Küveyt, Əlcəzair, Oman və İraq) sutkalıq hasilatı artıraraq 2,9 milyon barela çatdırmasıdır. Tərəflər hazırda dünya bazarında sutkada 100 milyon barel neft satışını da normal qarşılayaraq bu çərçivənin qiymətlərin dayanıqlılığı üçün normal hədd olduğunu hesab edir.

**70 dollar neft ixrac edən ölkələri qane edir**

Bu meyilləri nəzərə alan “OPEC+” və “OPEC” üzvləri bazardakı nəql kvotasını nəzarətdə saxlamağı məqsədəuyğun saymır. Kartel ölkələrinin enerji analitiklər hesab edirlər ki, dünya iqtisadiyyatında cüzi artım faizinə və sənayenin artma tələbatına uyğun neft tədarükün cəlb edilməsi vacibdir.

Ümumilikdə, “OPEC” ölkələri qlobal bazar üçün optimal qiymətin indiki şəraitdə 70 dollar olmasını sərfəli hesab edir. Kartel ölkələri hesab edir ki, dünya bazarında neftin qiyməti təbii olaraq deyil, süni yollarla da dəyişdirilir. Belə ki, ucuzlaşma hasilatın artırılması, nəqliyyat xərclərinin artması və s. amillərlə bağlı deyil, bazara süni müdaxilələr olur ki, bu da təchizatçıların planlaşdırmasını pozur.

Buna görə də, “OPEC” ölkələri də təşkilatın qeyri-üzv təmsilçilərinin fikirlərini dəstəkləyərək dünya bazarında neftin qiymətində eniş tendensiyasını nəzərə alam kartel ölkələri hasilatın sabit saxlanması və təmkinli nəql siyasəti yürütməyi məqsəduyğun hesab edib. Belə ki, Səudiyyə Ərəbistanı, Rusiya, İraq, BƏƏ, Küveyt, Qazaxıstan, Əlcəzair və Oman sabit qlobal iqtisadi mənzərə və aşağı ehtiyatlarda əks olunan sağlam neft bazarı əsasında sabitliyə sadiq olduqlarını təsdiqləyib.

**“OPEC” Katibliyi strateji plan hazırlayacaq**

İclasın yekununda “OPEC” və “OPEC+” ölkələri Əməkdaşlıq Bəyannaməsinə uyğun olaraq sabit neft bazarına nail olmaq və onu saxlamaq üçün davamlı öhdəlikləri dəstəkləmək qərarına gəlib. Əldə edilmiş birgə anlaşmaya əsasən, gündəlik xam neft hasilatının 2026-cı ilin sonuna qədər sabit saxlanılması və maksimum davamlı istehsal gücünün qiymətləndirilməsi mexanizmi təsdiqlənib. İştirakçılar 2026-cı ilin yanvar-mart aylarında hasilat artımını dayandırmaqla yanaşı, 2025-ci ilin dekabr ayı üçün gündəlik 137 min barel kollektiv artımın həyata keçirilməsi ilə bağlı birgə niyyətlərini ifadə edib. Qeyd edilib ki, birgə kommunike hasilatın sabit səviyyədə saxlanılmasına nail olmaqla, qiymətlərin orta dəhlizini təmin edəcək. OPEC Nazirləri Monitorinq Komitəsi iştirakçı ölkələrin davamlı səylərini yüksək qiymətləndirərək, kollektiv qərarlara ciddi riayət edilməsinin qlobal neft bazarında sabitliyinin qorunmasında həlledici amil olacağını bəyan edib.

Həmçinin, “OPEC” və “OPEC+” ölkələri ümumi xam neft hasilatının səviyyəsini nəzarətdə saxlamaq və bazar konyukturasına uyğun davamlı qərarlar qəbul etməyi razılaşdırıb. Bazar ssenarilərini izləyərək nəql imkanları ilə bağlı təcili qərarlar ermək üçün Nazirlərin Birgə Monitorinq Komitəsinin mandatına uyğun olaraq iki aydan bir iclas keçirməsi barədə də anlaşma əldə edilib. Həmçinin, 2027-ci il üzrə neft hasilatının baza səviyyələrinin müəyyən edilməsində istinad göstəricisi kimi istifadə olunacaq Maksimum Davamlı İstehsal Gücünün (MSC) qiymətləndirilməsi mexanizmi təsdiqlənib. “OPEC” Katibliyinə isə imzalanmış Əməkdaşlıq Xartiyasının məqsədlərinə nail olmaq üçün strateji plan hazırlamaq tapşırılıb..

*E.CƏFƏRLİ*

# YAP-ın beynəlxalq əlaqələri genişlənir

Bu gün Avropa ilə Asiya arasında körpülər yaradan Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı kifayət qədər yüksək səviyyədədir. Bu baxımdan ölkəmizdə hakim partiya olan Yeni Azərbaycan Partiyasının (YAP) beynəlxalq əlaqələrinin davamlı olaraq genişlənməsi xüsusi diqqət çəkir. YAP 33 ili əhatə edən inkişaf tarixində ayrı-ayrı ölkələrin aparıcı siyasi qüvvələri ilə sıx əlaqələr qurmağa nail olub. Bu əlaqələr yalnız partiyalar səviyyəsində əməkdaşlıqla məhdudlaşmır, həmçinin dövlətlərarası münasibətlərə də öz müsbət təsirini göstərir.

Elə bu günlərdə Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov, partiyanın Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdiri Hülya Məmmədli və İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovdan ibarət nümayəndə heyəti Braziliya Federativ Respublikasında və Kuba Respublikasında səfərdə olub. YAP-ın artan beynəlxalq nüfuzunu təsdiqləyən bu səfərlər müvafiq olaraq Mərkəzçi Demokrat İnternasionalının (IDC-CDI) və Kuba Kommunist Partiyasının (KKP) dəvəti əsasında baş tutub.









## YAP 83 ölkədən 109 siyasi partiyanı özündə birləşdirən IDC-CDI-nin tədbirlərində mütəmadi olaraq iştirak edir

Qeyd etdiyimiz kimi, bu günlərdə Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi YAP nümayəndə heyətinin Braziliya Federativ Respublikasına səfəri Mərkəzçi Demokrat İnternasionalının (IDC-CDI) dəvəti əsasında baş tutub. YAP 83 ölkədən 109 siyasi partiyanı özündə birləşdirən IDC-CDI-nin müşahidəçi üzvü kimi təşkilatın tədbirlərində mütəmadi olaraq iştirak edir. YAP-ın təşkilatçılığı ilə müxtəlif illərdə Bakıda keçirilən, ümumilikdə, 10 beynəlxalq konfrans və tədbirdə onlarla ölkədən olan nüfuzlu siyasi partiyaların yüzlərlə nümayəndəsi qatılıb.

Bu dəfəki səfər çərçivəsində YAP nümmayəndə heyəti San-Paulu şəhərində IDC-CDI, Braziliyanın Sosial Demokrat Partiyasının (PSD) Demokratik Məkan Fondu və Konrad Adenauer Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Demokratik müzakirə: sağ-mərkəzin siyasətdə körpülər qurması və həllər təklif etməsi" mövzusunda Forumda iştirak edib. Tədbirdə qlobal çağırışlar diqqət mərkəzində olub. Hazırda çox sürətlə yeni dünya nizamı formalaşmaqdadır və bu proses ciddi kataklizmlərlə müşayiət olunur. Dünya yeni müharibə riskləri ilə üz-üzədir. Milli dövlətlər üçün təhdidlər mövcuddur. Belə bir şəraitdə regional və qlobal təhlükəsizlik məsələlərinin aktuallığı heç vaxt olmadığı qədər artıb. Forumda bildirilib ki, hazırda bəşəriyyətin sağlam gələcəyi naminə intensiv dialoqa ehtiyac duyulur və bu kontekstdə sosial məsuliyyət daşıyıcısı kimi siyasi partiyaların da üzərinə mühüm vəzifələr düşür. Qarşılıqlı faydalı əməkdaşlıq şəraitində milli maraqlara hörmət və beynəlxalq hüquq normalarına riayət etməklə müxtəlif ölkələri təmsil edən siyasi partiyaların ümumbəşəri dəyərlər və ortaq maraqlar naminə səylərinin birləşdirilməsinin vacibliyi vurğulanıb.

"Dəyişikliklər dövründə ekstremal yanaşmalar arasında idarəetmə", "Dəyişən dünyada sağ-mərkəz narrativi", "Mürəkkəb problemlərə realist həllər" mövzularında panel sessiyaları ilə öz işini davam etdirən Forumda, həmçinin müasir dövrdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, demokratik institutların gücləndirilməsi, media və vətəndaş cəmiyyəti təsisatlarının dəstəklənməsi, eləcə də xalqlar arasında körpülərin qurulması üçün ideoloji qütbləşmənin azaldılması, etnik zəmində münaqişələrin qarşısının alınması və sivilizasiyalararası dialoqun təşviqində siyasi partiyaların rolu məsələləri müzakirə olunub.

Səfər zamanı, həmçinin YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Kamboca Xalq Partiyası Xarici əlaqələr komissiyası sədrinin birinci müavini və Kamboca Krallığı Milli Assambleyasının Xarici işlər, beynəlxalq əməkdaşlıq və informasiya komitəsinin sədri Suos Yara və Macarıstanın hakim Fides partiyasının vitse-prezidenti, Avropa Parlamentinin üzvü Kinqa Qal ilə görüşüb. Görüşlər zamanı partiyalararası əlaqələrin mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.



## Azərbaycanın beynəlxalq və regional təşkilatlarda mövqeyinin möhkəmləndirilməsi hədəfi

Yarandığı vaxtdan bəri Azərbaycanın inkişafına misilsiz töhfələr verən Yeni Azərbaycan Partiyası həmçinin ölkə qanunvericiliyinə uyğun əsaslarda özünün beynəlxalq əlaqələrini qurub inkişaf etdirir. Partiyanın 2021-ci il dekabrın 29-da qəbul edilmiş Proqramında da qeyd olunduğu kimi, milli maraqlara əsaslanan xarici siyasətin aparılması sahəsində YAP-ın bir sıra hədəfləri mövcuddur. Buraya dünya dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələrin möhkəmləndirilməsi və bundan ölkəmizin davamlı inkişafında səmərəli vasitə kimi istifadə olunması, regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsi, xarici ölkələrlə iqtisadi, elmi, mədəni və humanitar əlaqələrin genişləndirilməsi, habelə bəşəriyyəti narahat edən qlobal problemlərin aradan qaldırılması üçün beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi daxildir. Partiya ayrı-ayrı ölkələrin aparıcı siyasi qüvvələri ilə əlaqələrini genişləndirməklə, təcrübə mübadiləsi aparmaqla Azərbaycanın beynəlxalq və regional təşkilatlarda mövqeyinin möhkəmləndirilməsinə öz töhfələrini verməyi hədəfləyir.

Belə ardıcıl siyasətin nəticəsidir ki, hazırda Yeni Azərbaycan Partiyası Türkiyə, Qazaxıstan, Özbəkistan, Rusiya, Çin, Şimali Makedoniya, Şimali Kipr Türk Respublikası, Vyetnam, Kamboca, Laos və digər ölkələrdən olan onlarla aparıcı siyasi partiya ilə mütəmadi əlaqələrə malikdir. O cümlədən YAP xarici ölkələrin ayrı-ayrı siyasi partiyaları ilə əməkdaşlıq haqqında sazişlər imzalayıb. 2021-ci il 5 mart tarixində keçirilmiş VII qurultayından sonra Yeni Azərbaycan Partiyası tərəfindən digər ölkələrin siyasi partiyaları ilə çoxsaylı sənədlər imzalanıb. Bu sırada Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) ilə Əməkdaşlıq Protokolu (02.06.2021-ci il), Ukraynanın "Xalqın Xidmətçisi" Siyasi Partiyası ilə Əməkdaşlıq Memorandumu (03.12.2021-ci il), Şimali Makedoniyanın Türk Demokratik Partiyası ilə Əməkdaşlıq Memorandumu (10.05.2022-ci il), AK Parti və Şimali Kiprin Ulusal Birlik Partiyası ilə üçtərəfli Anlaşma Memorandumu (15.11.2023-cü il), Vyetnam Kommunist Partiyası ilə Əməkdaşlıq Sazişi (20.11.2023-cü il), Qazaxıstanın "AMANAT" partiyası ilə qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Memorandumu (13.06.2024-cü il), Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası ilə Əməkdaşlıq Memorandumu (13.06.2024-cü il). Çin Kommunist Partiyası ilə Əməkdaşlıq Memorandumu (13.11.2024-cü il) kimi sənədləri misal göstərə bilərik.

Bundan əlavə,Yeni Azərbaycan Partiyası 2009-cu ildən ICAPP (Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı) Daimi Komitəsinin üzvüdür. Hazırda YAP-ın İCAPP DK-dakı təmsilçisi Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovdur.

Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı Asiya ölkələrinin siyasi partiyalarını birləşdirən qurum olaraq 2000-ci ildə Filippində təsis edilib. Hər iki ildən bir keçirilən konfransın yaradılmasında əsas məqsəd, Asiya ölkələri siyasi partiyalarını bir araya gətirmək, regionu narahat edən suallara cavab axtarmaq, mövcud problemlərin həlli istiqamətində birgə səy göstərmək və digər ölkələrin Asiyaya olan inamını təmin etməkdir. ICAPP fəaliyyət göstərdiyi 25 il ərzində özünü yüksəksəviyyəli hökumət nümayəndələrinin, tanınmış ictimai-siyasi xadimlərin və təcrübəli ekspertlərin iştirakı ilə bəşəri əhəmiyyətli, qlobal xarakterli aktual məsələlərin müzakirə olunduğu, fikir və təcrübə mübadiləsinin aparıldığı nüfuzlu və perspektivli əməkdaşlıq platforması kimi təsdiqləyib. Asiyada 350-dən çox partiyanı əhatə edən ICAPP müxtəlif siyasi partiyaları bir araya gətirməklə Asiya ölkələri və xalqları arasında qarşılıqlı anlaşma və etimad mühitinin yaradılmasına böyük töhfə verməkdədir.

2012-ci ildə Bakıda keçirilən ICAPP-ın 7-ci Baş Assambleyasında qurumun Daimi Komitəsinin üzvlərinin səsverməsi ilə "Bakı Bəyannaməsi" qəbul edilib Bəyannamədə keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında xüsusi bənd əlavə olunub, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət və Azərbaycanın haqlı mövqeyi bir daha dəstəklənib. İCAPP-ın 7-ci Baş Assambleyası zamanı qurumun Qadınlar Qolunun təsis edilməsi təklif olunub və qərara alınıb ki, onun birinci iclası da 2013-cü ildə Azərbaycanda keçirilsin. Qərara əsasən, 2013-cü ilin aprel ayında qurumun Qadınlar Qolunun təsis konfransı Azərbaycanda keçirilib. İndiyədək YAP-ın ev sahibliyi ilə İCAPP-ın Bakıda bir sıra tədbirləri uğurla baş tutub. YAP nümayəndələri mütəmadi olaraq İCAPP tədbirlərində iştirak edir. Həmçinin İCAPP müşahidə missiyası Azərbaycanda keçirilən seçkiləri müşahidə edir.

## Kubada imzalanan hakim partiyaların ortaq hədəflərinin əks olunduğu Əməkdaşlıq Sazişi

Kubaya səfər çərçivəsində Kuba Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi, Kuba Respublikasının Prezidenti Miqel Mario Dias-Kanel Bermudes YAP nümayəndə heyətini qəbul edib. Azərbaycanla Kuba arasında münasibətlər tarixi köklərə əsaslanır. Bu münasibətlərin möhkəmlənməsində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Kubanın Ali Baş Komandanı Fidel Kastronun müstəsna xidmətləri olub. Azərbaycanla Kuba arasında diplomatik münasibətlər 27 mart 1992-ci il tarixində qurulub. İndiyədək iki ölkə arasında təxminən 10 sənəd imzalanıb. Bu gün ölkələrarası münasibətlər səmimi dostluq və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslanmaqla uğurla inkişaf edir. Eyni zamanda, fəal siyasi dialoq şəraitində iqtisadi, ticari, mədəni, tibb, təhsil, turizm, aqrar və digər sahələrdə genişmiqyaslı əməkdaşlıq üçün mühüm potensial mövcuddur.

Azərbaycan və Kuba ikitərəfli dialoqla yanaşı, beynəlxalq platformalarda, o cümlədən də BMT və Qoşulmama Hərəkatı (QH) çərçivəsində də səmərəli işbirliyini davam etdirirlər. Kubaya qarşı iqtisadi, ticarət və maliyyə embarqosuna son qoyulmasının zəruriliyinə dair BMT Baş Assambleyasında müzakirəyə çıxarılan qətnamə layihələrinin lehinə Azərbaycan hər zaman səs verib. Həmçinin Kuba ölkəmizin regionda sülh, sabitlik və təhlükəsizlik məsələlərinə dair haqlı və ədalətli mövqeyini bölüşür. Görüşdə bütün bu kimi məqamlar xatırlanaraq iki ölkənin beynəlxalq hüquq normalarına əsaslanmaqla bir-birinin ərazi bütövlüyü və suverenliyinə birmənalı dəstək verdikləri xüsusi vurğulanıb.

Azərbaycan-Kuba münasibətlərinin gələcək inkişafında hakim partiyalar - Yeni Azərbaycan Partiyası ilə Kuba Kommunist Partiyasının rolu diqqətə çatdırılıb, təmaslar və qarşılıqlı səfərlərin faydalı təcrübə mübadiləsinin aparılması, eləcə də məhsuldar işbirliyinin gücləndirilməsi nöqteyi-nəzərindən önəmi qeyd olunub.

Səfər çərçivəsində YAP nümayəndə heyəti bir sıra digər görüşlərə də qatılıb. Həmçinin Yeni Azərbaycan Partiyası ilə Kuba Kommunist Partiyası arasında Əməkdaşlıq Sazişi də imzalanıb. Sazişi YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və KKP Mərkəzi Komitəsi Katibliyinin üzvü Xose Ramon Monteaqudo Ruiz imzalayıblar.

Partiyalar arasında çoxşaxəli işbirliyinin əsas istiqamətlərini və mühüm prioritetləri müəyyənləşdirən Əməkdaşlıq Sazişinin imzalanmasının dövlətlər arasındakı əlaqələrin mühüm tərkib hissəsi kimi partiyalararası münasibətlərdə yeni mərhələnin əsasını qoyacağı və çoxşaxəli əməkdaşlığa xidmət edən siyasi-hüquqi əsasları möhkəmləndirəcəyi vurğulanıb. İki dost ölkənin maraqlarının və hakim partiyaların ortaq hədəflərinin əks olunduğu Sazişdən irəli gələn vəzifələrin icra olunması nəticəsində ortaq hədəflərin gerçəkləşdiriləcəyinə əminlik ifadə olunub.

*Mübariz ABDULLAYEV*

# Azərbaycan paytaxtında dünya dövlətlərinin rəqəmsal inkişafla bağlı strateji hədəfləri müəyyənləşdi

Bakıda keçirilən Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının (“WTDC-25”) yekunlarına əsasən, üzv dövlətlər rabitə əlçatanlığının təmin edilməsi üzrə qlobal yol xəritəsinin qəbul edilməsi barədə razılığa gəlib. Sənəddə Beynəlxalq Telekommunikasiya İttifaqının rəqəmsal inkişaf sahəsində gələcək işini müəyyən edən yenilənmiş yeni qətnamələr, həmçinin təşkilatın Telekommunikasiya İnkişafı Sektoru üçün tövsiyələr əks olunub. Həmçinin yekun razılaşma sənədində inkişaf etməkdə olan ölkələrin, kifayət qədər bağlantısı olmayan regionların və həssas əhali qruplarının ehtiyaclarına xüsusi diqqət yönəldilməsi barədə öhdəliklər də nəzərə alınıb. Ümumilikdə, sənəd üzv ölkələrin rəqəmsal inkişafında meydana çıxan problemlərini həll etməyə yönəlmiş yeni təşəbbüslərin həyata keçirilməsi üçün vahid strateji məqsəd və prinsipləri özündə birləşdirməklə birgə tərəfdaşlığın çərçivəsini müəyyən edir.

## Bakı Bəyannaməsi



## Fəaliyyət Planı - rəqəmsal inkişafın yol xəritəsi

Tədbir çərçivəsində qəbul olunan qətnamələr radiotezliklərin idarə olunması, kibertəhlükəsizlik, rəqəmsal inklüzivlik, İKT-nin tətbiqi və tənzimlənməsi, innovasiya və ucqar ərazilərdə rəqəmsal texnologiyaların istifadəsi kimi müxtəlif sahələri əhatə edib. Konfransın əsas yekun sənədi olan Bakı Fəaliyyət Planı telekommunikasiya və informasiya-kommunikasiya texnologiyaları vasitəsilə insan mərkəzli rəqəmsal inkişafın əsas istiqamətlərini müəyyən edir. Plan xüsusilə inkişaf etməkdə olan ölkələr, rəqəmsal xidmətlərə məhdud çıxışı olan icmalar və həssas əhali qruplarının ehtiyaclarını prioritet olaraq önə çıxarır. Hazırda dünyada təxminən 2 milyarddan artıq insan internetə qoşula bilmir. 2026-2029-cu illəri əhatə edən dördillik plan inklüziv və dayanıqlı rəqəmsal gələcək üçün universal, faydalı və əlçatan internet bağlantısının inkişaf etdirilməsinə dəstək verəcək.

Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) baş katibi Dorin Boqdan-Martin vurğulayıb ki, Bakı Bəyannaməsi və Fəaliyyət Planı heç kimi diqqətdən kənarda qoymamaqla vahid prinsip əsasında insanyönümlü rəqəmsal inkişafa doğru istiqamətlənmiş yol xəritəsidir.

Təşkilatın Telekommunikasiya İnkişafı Bürosunun direktoru Kosmas Lakison Zavazava isə qeyd edib ki, “WTDC-25”in Bakı Fəaliyyət Planında əks olunan müddəalar üzv dövlətlərin ehtiyaclarını, prioritetlərini və gözləntilərini tam əks etdirir, gələcəyə yönəlmiş və nəticəyönümlü rəqəmsal inkişaf gündəmini formalaşdırır. “Fəaliyyət Planı ən az inkişaf etmiş ölkələrin, dənizə çıxışı olmayan dövlətlərin və inkişaf etməkdə olan kiçik ada dövlətlərin unikal tələblərini nəzərə alaraq, qalan rəqəmsal bölünmələrin azaldılması üçün addımlar müəyyənləşdirir. Biz hökumətlər və tənzimləyicilərlə əlverişli siyasət və normativ mühit yaratmaq üçün işləyərək, hiss olunacaq nəticələrə nail olmağı və rəqəmsal transformasiyanı sürətləndirməyi gözləyirik. Bu cür mühit sənaye və özəl sektora infrastruktur boşluqlarının aradan qaldırılması ilə bağlı səyləri daha fəal şəkildə maliyyələşdirməyə və dəstəkləməyə imkan verəcək, hamı üçün əhəmiyyətli və əlçatan bağlantı təmin edəcək”.

## Azərbaycan rəqəmsal təşəbbüslərin məkanına çevrilib

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev qeyd edib ki, MDB regionunda ilk dəfə Azərbaycanda təşkil olunan konfrans regional və beynəlxalq rəqəmsal inkişaf strategiyalarının müzakirəsinə imkan yaradıb.

Bakı üzv dövlətlər və tərəfdaşların növbəti dörd il ərzində ITU-nun inkişaf sahəsindəki fəaliyyətini müəyyən edəcək konkret nəticələr barədə razılığa gəldikləri bir məkana çevrilib. “Tərəfdaşlarla birlikdə çalışan Azərbaycan bu nəticələrin formalaşmasında fəal iştirak etdi. COP29-un Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannaməsinə istinad edən Bakı Bəyannaməsinin qəbul olunması isə inklüziv və davamlı rəqəmsal gələcəyə olan ortaq öhdəliyimizi əks etdirir”.

Beynəlxalq Telekommunikasiya İttifaqının Bakı Konfransı çərçivəsində ən mühüm hadisələrdən biri də Bakıda Regional Akselerasiya Mərkəzinin fəaliyyətə başlamasıdır. Azərbaycanın İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) ilə BTİ arasında əldə edilmiş strateji əməkdaşlıq çərçivəsində təsis edilən Mərkəz MDB regionunda ilk Akselerasiya zonası olmaqla, startapları, biznes subyektlərini, dövlət qurumları və təhsil müəssisələrini bir araya gətirərək innovativ sahibkarlıq potensialını təşviq edəcək. Mərkəz, eyni zamanda, rəqəmsal ekosistemdə əməkdaşlığı təşviq etmək və regional səviyyədə rəqəmsal transformasiyanın sürətlənmək yönündə yaradıcı ideyaları və biznes təşəbbüslərini dəstəkləyəcək.

BTİ Akselerasiya Mərkəzi sürətlə dəyişən rəqəmsal dünyada təhlükəsiz və etibarlı şəkildə irəliləmək üçün yeni, daha dayanıqlı və gələcəyə yönəlmiş yanaşmaları inkişaf etdirməyi hədəfləyən 17 innovasiya mərkəzindən ibarət şəbəkənin bir hissəsidir. Akselerasiya Mərkəzi dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi və innovativ potensialın real imkanlara çevrilməsi istiqamətində əsas platforma rolunu oynayacaq, Azərbaycan və regionun digər ölkələrindən olan startaplar və innovativ layihələr üçün qovşaq rolunu oynayacaq və texnoloji məhsul və xidmətlərdən əldə edilən milli gəlirin artmasına töhfə verəcək.

## “WTDC-25”in üç sazişi nəyi əhatə edir?

Qeyd edək ki, “WTDC-25” çərçivəsində üzv ölkələr tərəfindən üç saziş də imzalanıb. Onlardan biri Asiya-Sakit okean regionunda milli “ağıllı kəndlər” və “ağıllı adalar” proqramlarının dayanıqlılığını artırmaq üçün ikiillik layihədir. Layihə Avstraliyanın İnfrastruktur, Nəqliyyat, Regional İnkişaf, Rabitə, İdman və İncəsənət Nazirliyi ilə birgə həyata keçiriləcək. Bu layihə kənd və ucqar icmalarda rəqəmsal bacarıqların inkişafı və rəqəmsal xidmətlərə çıxışın genişləndirilməsi üzrə model olacaq. Layihə birbaşa yeddi ölkə üzrə təxminən 3 min insanın həyatına təsir edəcək. İkinci layihə MDB regionunda potensialın və rəqəmsal bacarıqların inkişafı üzrə niyyətləri əks etdirir. Tərəfdaşı “Intersputnik” şirkəti olan bu layihə peyk rabitəsi və yayım texnologiyaları sahəsində təxminən 300 mütəxəssisi əhatə edəcək. Gender-inklüziv rəqəmsal ticarətin inkişafına yönəlmiş yeni tərəfdaşlıq üzrə məqsədləri əks etdirən üçüncü layihə çərçivəsində gənc qadın sahibkarların rəqəmsal və sosial bacarıqlarının artırılması nəzərdə tutulur.

Beləliklə, “WTDC-25”də təsdiqlənən Bakı Fəaliyyət Planı telekommunikasiya və informasiya-kommunikasiya texnologiyalarına əsaslanan insanyönümlü rəqəmsal inkişafın əsasını formalaşdıracaq.

**E.CƏFƏRLİ**

# Yerli festivaldan qlobal brendə

## “Nar bayramı” ölkə hüdudlarını aşır...

Müqəddəs kitablarda adı çəkilən nar qədim zamanlardan Şərqdə “meyvələrin şahı” sayılırdı. Azərbaycan tarixi uzaq əsrlərə gedib çıxan narın yetişdirilməsi mədəniyyəti ilə qırılmaz sur?td? bağlıdır. Nar tarixən ölkəmizin dem?k olar ki, bütün regionlarında yetişdirilir. Quru subtropik zonada yerləşən Şirvan ən yaxşı nar sortlarının yetişdirilm?si mərkəzi kimi qəbul edilib. Şirə istehsalı üçün isə Göyçay rayonunda yetişən narlardan istifadə olunur.

Məhz Göyçay narı dünyada tanınaraq, “əsl Azərbaycan narları” üçün sinonimə çevriliblər. Göyçay narlarının əla dadı və dəyişməz keyfiyyətinin sirri dünyanın heç bir yerində rast gəlinməyən unikal mikroiqlimin mövcudluğu və rayonun torpaq tərkibidir.

Ölkəmizdə narın müxtəlif növləri yetişdirilir, bu da Azərbaycan təbiətinin zənginliyindən, burada doqquz iqlim zonasının mövcudluğundan irəli gəlir. Al qırmızı rəngli nar meyvəsi ölkəmizin milli simvoluna çevrilib. Hər il noyabr ayının əvvəllərindən başlayaraq ay sonuna qədər Azərbaycanın Göyçay rayonunda “Nar festivalı” keçirilir.

## Nar xalqımızın mədəni həyatında xüsusi yer tutur

“Nar bayramı” ilk dəfə Azərbaycan Respublikası Mədəniyyət nazirliyi və Göyçay rayon İcra hakimiyyətinin birgə təşəbbüsü ilə 3 noyabr 2006-cı ildən keçirilir. Bu bayramda Göyçay rayonun ayrı-ayrı kəndlərində yetişən nar növləri və onlardan hazırlanmış məhsullar rayon mərkəzinə gətirilir və şəhər meydanında təşkil olunmuş sərgidə nümayiş etdirilir. Şəhər mərkəzində gənc idmançıların çıxışları və konsert proqramlarına tamaşa edilir. Bayramların keçirilməsində əsas məqsəd regionların təbliği, mədəni və iqtisadi potensialın nümayişi və turizmin inkişaf etdirilməsindən ibarətdir.

Nar mədəniyyəti və ənənələrinin Azərbaycan xalqının mədəni həyatında, mifologiyasında, qədim adət-ənənələrində, mətbəxində, kənd təsərrüfatında xüsusi yer tutmaqdadır. Bir çox Azərbaycan rəssamları öz yaradıcılığında da nar mövzusuna müraciət ediblər. Azərbaycan təsviri sənətinin böyük şəxsiyyətlərindən olan Toğrul Nərimanbəyov, Səttar Bəhlulzadə, Tahir Salahov, Sakit Məmmədov, Arif Hüseynov öz əsərlərində nar mövzusuna dəfələrlə müraciət ediblər.

## Belarusda “Nar bayramı”

Qeyd edək ki, nar bayramı uzun müddətdir ki, ölkəmizin hüdudlarından kənarda, xarici ölkələrdə də diqqət mərkəzindədir. Bu günlərdə Azərbaycanın Belarusdakı səfirliyinin, Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin və Qrodno vilayətinin azərbaycanlılar icmasının birgə təşkilatçılığı ilə “Nar bayramı” adlı tədbir keçirilib.

Səfirlikdən verilən məlumata görə, tədbiri açan səfir Məhərrəm Əliyev ölkəmizin kənd təsərrüfatında narçılığın əhəmiyyətindən bəhs edib, Azərbaycanın Göyçay şəhərində 2006-cı ildən etibarən hər il keçirilən Nar bayramı haqqında məlumat verib. Səfir “Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti”nin UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edildiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Nar bayramının Belarusda keçirilməsinin ənənə halını aldığını vurğulayan səfir bu tədbirin ilk dəfə Qrodno vilayətində təşkilindən məmnunluğunu ifadə edib və vilayət rəhbərliyinə yaradılan şəraitə görə minnətdarlığını bildirib.




## Adət-ənənələrimizlə yaxından tanış olmaq fürsəti

Sonra Qrodno Vilayət İcraiyyə Komitəsinin Mədəniyyət idarəsinin müdir müavini Snejana Kuratçik bu şəhərin multikultural tədbirlərə ev sahibliyi etməkdə zəngin təcrübəyə sahib olduğunu bildirərək, 2026-cı ildə burada 13-cü Respublika Milli Mədəniyyətlər Festivalının keçiriləcəyini xatırladıb. Bu festivalın təkcə Belarus mədəniyyətinin deyil, həm də digər xalqların mədəniyyətlərinin nümayişi üçün unikal bir platforma olduğunu vurğulayan S.Kuratçik qeyd olunan tədbirdə Azərbaycan diasporunun yüksək səviyyədə iştirak etdiyini vurğulayıb. İlk dəfə Qrodnoda keçirilən Nar bayramının belaruslular üçün Azərbaycan xalqının ruhu, adət-ənənələri ilə daha yaxından tanış olmaq üçün yeni bir fürsət olduğunu bildirərək tədbirin təşkilatçılarına təşəkkür edib.

## Narçılıqla bağlı mədəni irsimizin qorunmasına töhfə

Sonda Qrodno icmasının sədri Elxan Bəylərov çıxış edərək, hər il ölkəmizdə və onun hüdudlarından kənarda keçirilən Nar bayramının narçılıqla bağlı mədəni irsimizin və adət-ənənələrimizin qorunub saxlanılmasına töhfə verdiyini bildirib. Ənənəvi olaraq Minskdə, cari ildə isə Qrodnoda keçirilən bu tədbirin Azərbaycan və Belarus arasında humanitar əlaqələrin, o cümlədən xalqlarımız arasında dostluq münasibətlərinin inkişafına xidmət etdiyini vurğulayıb, Qrodno vilayətinin və teatrın rəhbərliyinə bu istiqamətdə göstərilən səylərə görə minnətdarlığını bildirib.

**Yeganə**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti üzrə hazırlanmışdır

# Əli Kərimli həbs olundu

## Dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlərdə günahlandırılır

### Rusiya FTX-nin Əli Kərimliyə sifarişi: Saleh Rüstəmli vasitəçillik edib

Sirr deyil ki, Azərbaycan dövlətinin maraqlarına və xalqımızın mənafeyinə qarşı çıxmaq, ölkəmizdəki sabitliyə və inkişafa xələl yetirmək, respublikamızın beynəlxalq imicinə kölgə salmaq Azərbaycanın radikal müxalifət partiyalarının və onların rəhbərlərinin fəaliyyətindən qırmızı xətlə keçir. Bu xüsusda AXCP və onun sədri Əli Kərimli, "Milli şura" həmişə öndə olub. Bu şəxslərin öz cılız məqsədləri və maddi maraqlarını təmin etmək naminə Azərbaycan dövlətçiliyinə qarşı fəaliyyətlərini təsdiq edən kifayət qədər faktlar mövcuddur.

Yayılan məlumatlara görə, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimlinin evində axtarış aparıb. Axtarış zamanı evdən "Milyarderlər İttifaqı" ilə əlaqəyə dair materiallar, Ramiz Mehdiyev tərəfindən yazılmış məktubun mediada olmayan ilkin redaktə variantı, sair sənədlər tapılıb. Məlumatlara görə, onlar barələrində aparılan araşdırma çərçivəsində dindiriliblər. Bildirilir ki, proses Ramiz Mehdiyev barəsində açılan cinayət işi çərçivəsində aparılıb.

### AXCP funksionerindən etiraf: Saleh Rüstəmliyə demişdilər ki...

Əli Kərimlinin Rusiya ilə əlaqəli fəaliyyətdə olması və onun əməllərinin əsas hədəfinin Azərbaycan dövlətçiliyinə qarşı yö-

### Əli Kərimli Rusiyadan yüz minlərlə dollar alıb...

nəlməsi yeni bir hal deyil. Hələ 2018-ci ildə Respublika Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin yaydığı birgə məlumatda bildirilirdi ki, Azərbaycan Xalq Cəbhəsi Partiyası adlı qurum ölkəmizdə və xaricdə dövlətimizə, dövlətçiliyimizə və milli maraqlarımıza zidd olaraq keçirilən tədbirlərinin maliyyələşdirilməsi üçün qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində əldə edilmiş külli miqdarda çirkli pul vəsaitlərinin leqallaşdırılması əməllərini törətməsinə dair kifayət qədər sübutlar toplanıb. Həmin əməllərin törədilməsində qurumun funksionerlərindən Əli Kərimli, Qənimət Zahidov, Saleh Rüstəmov, Vidadi Rüstəmli, Aqil Məhərrəmov, Ruslan Nəsirov, Babək Həsənov və digərlərinin - Bakı şəhər sakinləri Ceyhun Hüseynov, Rauf İsgəndərov, Heydər Əhmədov və Tural Mehdixanovun adı qeyd edilirdi. Bəli, bu həmin Sadeh Rüstəmlidir ki, yenidən Rusiya ilə əlaqədə ittiham olunur. 2018-ci ildə rəsmi qurumların yaydığı məlumtda bildirilirdi ki, Rusiyada yaşayan Saleh Rüstəmov çirkli pul vəsaitlərinin əldə edilməsinin mənbəyini gizlətmək məqsədilə fərqli yollara əl atıb. Hələ o vaxt bildirilirdi ki, 2016-cı ilin martından adıçəkilən dövrə qədər Bakıda valyuta əməliyyatlarının qanunsuz köçürülməsi ilə məşğul olanların vasitəsilə Əli Kərimliyə çatdırılan pulun miqdarı 412 min ABŞ dolları olub.

### Saleh Rüstəmlidən "imtina" - AXCP məsuliyyətdən yayınmaq istəyir

Bu xatırlatmanı verməkdə məqsəd artıq AXCP-nin funksionerlərinin əl-ayağa düşərək birmənqalı şəkildə ittihamları özlərindən kənarlaşdırmaq üçün əl atdıqları manevrlərə diqqət çəkməkdir. Məsələn, AXCP sədrinin saxlanılması xəbəri yayılandan az sonra partiyanın funksioneri Seymur Həzi tələm-tələsik internet resurslarından birinə çıxaraq saxlanılan Saleh Rüstəmlinin AXCP üzvü olmadığı bəyanatını verir. Halbuki, bu şəxsin Əli Kərimli ilə birgə pul maxanasiyasının tarixi hələ 10 illər öncədən başlayır. Bunu rəsmi orqanlar da təsdiqləyib. Bəs, indi hansı səbəbdən Əli Kərimliyə illərlə pul daşıyan bu şəxslə əlaqədən imtina olunur? Səbəb bəllidir...Onlar Rusiyadan alınan təlimatlardan və bu təlimatların alınması faktıdan imtina etmək üçün bu fəndə əl atırlar.

### Rusiya FTX-nin Əli Kərimli "sifarişi"

Seymur Həzi deyir ki, sonuncu dəfə həbsdən çıxıb Rusiyaya gedən Saleh Rüstəmlidən Rusiya Federal Təhlükəsizlik Xidməti, xüsusi xidmət orqanları tələb edirdilər ki, "o, Əli Kərimli ilə danışsın, Azərbaycanda Ukraynanın müdafiəsi məsələsi dayandırılsın. Başqa sözlə, Azərbaycanda Ukraynanın mövqeləri müdafiə olunmasın, Azərbaycan bütövlükdə ruspərəst ölkə olsun..."

Buradan iki əsas nəticə çıxarmağa çalışılır:

- Saleh Rüstəmlinin Əli Kərimliyə təlimat verməsi ilk hal deyil. Əks halda, Rusiya FTX-si bunu bu qədər rahat "tələb etməzdi";

- Əli Kərimli indiyə qədər danışdığı, müdafiə etdiyi və ya pislədiyi bütün proseslərı təlimat, sifariş əsasında yerinə yetirib. Seymur Həzi etiraf edir ki, Əli Kərimli özünün siyasi "düşüncələrini", siyasi prioritetlərini və siyasi hərəkətlərini şimaldan gələn təlimatlar əsasında qurur. Əli Kərimli ilə Saleh Rüstəmlinin işbirliyinin "şifrəsi" "pul - təlimat", "sifariş - icraçı" prinsiplərinə əsaslanıb. Bunu AXCP funksionerləri özləri də etiraf edirlər. Niyə Rusiya FTX-si Saleh Rüstəmliyə birbaşa Əli Kərimli "sifarişi"ni verib. Demək ki, bu kimi əlaqələr əvvəlki dövrlərdə də olub, yaşanıb.

Bütün xəyanətlər geci-tezi açılır. Əli Kərimli kimi radikal xainlərin ifşası isə heç 40 gün də çəkməyəcək...

Göründüyü kimi, bu proseslər Azərbaycanın təhlükəsizliyini təhdid edə bilər. Rusiyanın ölkəmizə qarşı müxtəlif müstəvilərdə təxribatlar həyata keçirdiyinin şahidi oluruq. Bu proseslərdə Ramiz Mehdiyev, radikal müxalifət və AXCP-nin adı hallanır. Bu kontekstdə dövlətçiliyimizi hədəf alan marjinal qruplar müxtəlif şəkildə Azərbaycan siyasətindən getməlidir. Bu cür xəyanətkar ünsürlər - əli kərimlilər, cəmil həsənlilər, ramiz mehdiyevlər bütövlükdə öz komandaları ilə birlikdə Azərbaycanın siyasi sistemindən birdəfəlik təmizlənməlidirlər.



### Fazil Mustafa: FTX-nin və ya başqa orqanların Azərbaycanla bağlı fəaliyyətlərində radikal müxalifətin bu və ya digər şəkildə yer alması mümkündür

Məsələ ilə bağlı fikirlərini bölüşən Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa baş verən hadisələrin kifayət qədər ciddi olduğunu dilə gətirib. O bildirib ki, dövlət orqanlarının əlində əsaslı sübutlar olmasa, bu cür qətiyyətli və birmənalı addımlar atılmaz: "Bu addımlar müxalifətə qarşı atılan addımlar kimi qiymətləndirilməməlidir. Bu, bilavasitə vaxtilə hakimiyyətdə təmsil olunan Ramiz Mehdiyevə qarşı da atılan addımdır. O ki müxalifətdə olmayıb?"

Vurğulandığı kimi, AXCP sədrinin müavini Seymur Həzi Rusiya FTX-nin Saleh Rüstəmliyə Əli Kərimli ilə danışmağa bağlı təzyiq edib.

Bu məsələyə də toxunan millət vəkili bildirib ki, proses haqqında qəti fikir bildirmək üçün hüquqi baxımdan istintaqın nəticələrini gözləmək lazımdır. "Rusiyanın hansısa təhlükəsizlik qurumunun bu məsələlərdə hansısa marağının bu cür ifadə olunması da mümkündür. Bu kimi əlaqələrin, əməkdaşlığın və ya məqsədlərin araşdırılması Azərbaycan DTX-nın bilavasitə işi olduğuna görə, sözügedən əlaqələrin də araşdırılması təmin edilər. Azərbaycan hüquqi dövlətdir və məsələlərin də hüquq çərçivəsində məsələnin həll olunmasına heç kimin şübhəsi olmamalıdır. Hazırda saxlanma və müvafiq ittihamların irəli sürülməsi vəziyyətin nə qədər ciddi olduğundan xəbər verir. Ona görə də, FTX-nin və ya başqa orqanların Azərbaycanla bağlı fəaliyyətlərində radikal müxalifətin bu və ya digər şəkildə yer alması mümkündür. Buna qədərki hadisələrdə də bunun əlamətləri çox vaxt özünü göstərib", - deyə F.Mustafa deyib.

### 2 ay 15 gün həbs...

Yeri gəlmişkən, vurğulayaq ki, AXCP sədri Əli Kərimli barəsində həbs qətimkan tədbiri seçilib. Mətbuatın yaydığı məlumata görə, Səbail rayon Məhkəməsində hakim Ülviyyə Şükurovanın sədrliyi ilə keçirilən prosesdə onun barəsində qətimkan tədbirin seçilməsi ilə bağlı təqdimat və vəsatətə baxılıb. Məhkəmənin qərarı ilə Əli Kərimli barəsində 2 ay 15 gün müddətə həbs qətimkan tədbiri seçilib. Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən saxlanılan AXCP sədri Əli Kərimli və partiyanın Rəyasət Heyətinin üzvü Məmməd İbrahim barəsində Cinayət Məcəlləsinin 278.1 (hakimiyyəti zorla ələ keçirməyə, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddəsi ilə ittiham irəli sürülüb.

*Sadiq İSMAYILZADƏ*

# Müxalifətin makiyajsız çöhrəsi...

XXI əsr özünün siyasi gerçinlikləri ilə əvvəlki yüzilliklərdən tam fərqlənir - bu dövrün ötən 25 ilinin spesifikasına diqqət yetirsək, nələrin şahidi olmarıq? Siyasi çirkinliklərin bəzən "demokratiya" adına təqdim olunması, milli xəyanətlərə "siyasi fənd" statusu qazandırmaq cəhdləri, milli xəyanətkarların özünü "alternativ" kimi cəmiyyətə sırımaq niyyətləri... Sadalamaqla bitməz. XXI əsr milli gələcəyin qurulmasına mane olmaq üçün beyinlərə təsir göstərmək cəhdləri ilə çox məşhurdur.

Bunları görmək üçün çox uzağa da getmək lazım deyil - özünü "müxalifət" adlandıran, daha doğrusu, "müxalifət" olmasına cəmiyyəti inandırmaq üçün min oyundan çıxan Azərbaycandakı azsaylı qrupların "nüvəsinə" baxdıqda yuxarıda qeyd edilən mənzərə ilə üz-üzə qalırıq. Amma bu mənzərənin görüntüsü fərqlidir - uzaqdan bərli-bəzəkli kimi görünən bu tabloya yaxın gəldikcə, onun makiyajsız halı üzə çıxır: qarşında eybəcər, xain, əyri və qorxunc çöhrə canlanır...



### Gültəkinə gün təki aydındır: makiyajsız İstanbula qaçış planı...

Bu xəyanətkar dəstənin adbaad xarakterizə olmasına ehtiyac yoxdur - çünki bütün xainlər, bütün xəyanətkarlar təxminən eyni cizgiləri daşıyır. Məsələn, Gültəkin Hacıbəylinin həyəcanla və tələm-tələsik kamera qarşısında özünə bəraət qazandırmaq üçün çəkdiyi 1-2 dəqiqəlik "roliki" onun əsl kimliyini ortaya qoyur - söhbət çöhrənin alt qatında gizlənən çirkinliklərin üzə çıxmasından gedir. Necə ki, 2020-ci il qlobal pandemiya dövründə "milli şura" adlanan xainlər toplusunun əsl siması hər kəsə görünmüşdü - onlayn iclaslarda şura üzvlərinin guya, zarafatla söydükləri küçə söyüşlərini rahat şəkildə qəhqəhə ilə qəbul edən, "ay millət xəbəriniz var, neft 14 dollardır, hamınızın gözünüz aydın olsun" deyən, "qlobal pandemiyanın uzanması bizə sərf edir" deyə irişən Gültəkin Hacıbəyli indi həqiqətin üzə çıxdığını görüb özünü xilas etmək üçün min bir yola əl atır. Amma artıq nə fayda - hər şey gün kimi ortadadır. Həqiqətdən qaçmaq mümkün deyil - hətta tanınmamaq üçün makiyajsız çöhrə ilə İstanbula qaçmaq istəsən belə, bu, mümkün olmur...

### Xəyanətin ifşası və ya makiyajlı "siyasi ambisioz" obrazın süqutu...

İllərdir ki, internet resurslarından cəmiyyətə "xitab" edən, özünü "ağıllı-ağıllı" danışan kimi, alternativ kimi göstərənlər yolun sonuna gəlib çıxırlar - biri çamadanını yığıb aradan çıxmaq istəyir, biri ekran qabağında "günah çıxardır", birisi sosial şəbəkələrdə status yazaraq üsulluca özünü sudan quru çıxarmağa çalışır. Dünənə qədər hədəfləri Azərbaycanın dövlət müstəqilliyi idi - şimaldan gələn təlimatlarla Moskvanın arzularını yerinə yetirirdilər. Bu gün isə situasiya dəyişib - artıq Əli Kərimli istintaqa ifadə verir.

Bu adamlar nə qədər gizləməyə çalışsalar da, hər zaman xəyanətlərini biruzə veriblər. Adi bir fakt - 2020-ci il Vətən müharibəsi günlərində Əli Kərimli və yandaşları qələbəmizə nəinki sevinmir, hətta fərqli fəndlərlə sabotaj etməyə çalışırdılar. Xarici "siyasi mətbəxlərdə" fərqli xarici dairələrin sifarişi ilə hazırlanan tezislər üzərindən düşmənə yardım edirdilər. Bu da təsadüfi deyildi - illərdir ki, davam edən sifarişçi-icraçı işbirliyinin real nəticəsi idi. Xəyanətin anatomiyası eynidir: millətə də, dövlət də, xalqa da xəyanət eyni çirkaba bulaşmaq deməkdir...

Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və adlarını sadalamadıqlarımız bu xəyanətə nəinki bulaşıblar - onlar bu çirkabın daşıyıcılarıdır. İllərdir ki, xəyanət virusunu yaymaq üçün çiyin-çiyinə yol gəlirdilər. Amma yol bitdi: xəyanətin ifşası makiyajlı "siyasi ambisioz" obrazın bütün çirkinliklərini üzə çıxardı.

### "Siyasi buqələmun"ların makiyajsız halı indi ortadadır...

Gözdən pərdə asmağa çalışırdılar - texniki imkanlardan yararlanaraq özlərini bəzi xarici dövlətlərdə keçirilən toplantılara "montaj"edirdilər. "Sülh və demokratiya", "hüquq və azadlıq", "beynəlxalq dəyərlər" və bu kimi boğazdan yuxarı "ənnik-kirşanlı" sözləri özləri üçün qalxana çevirmişdilər. Konstitusiyanın birinci maddəsinin, birinci bəndi "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır", deyir. Bu xəyanətkar dəstə və onun sifariş icraçıları isə ölkəni başqa dövlətlərinin hakimiyyəti altına sürükləməyə çalışırdılar. 2013-cü ildə "milli şura"nın Vladimir Putinə yazdığı məktub buna bariz sübutdur. Əli Kərimli monitor ekranında "qərbpərəst" poz verirdisə, makiyajın altında bir "ruspərəst" xidmətçi obrazı yatırdı. Onların "siyasi makiyajı" o qədər güclü idi ki, hətta bəzi hallarda Qərbin maraqlı dairələri də onlardan istifadə etmək eşqinə düşürdülər. Əli Kərtimli və dəstəsinin Sevinc Osmanqızı ilə "işbirliyi" yada düşür - son vaxtlarda Əli Kərimli "Osmanqızı TV"-nin timsalında Qərbdən birmənalı imtina etmişdi. Yəqin ki, bu da şimadan gələn təlimat idi - belə bir təlimat olmasaydı, Əli Kərimli özünün təminat ünvanlarından biri ilə məcburən vidalaşmazdı.

"Siyasi rəngarəngliyi" "siyasi buqələmunluq"la qarışdıran bu dəstənin makiyajsız halı indi ortadadır. Monitor qabağından danışdıqları bərli-bəzəkli yalanların, xəyanətlərinin cavablarını da verəcəklər. Necə deyərlər. "cidanı çuvalda gizlətmək olmaz" - o ki qala, çüval deşik ola...

*P.İSMAYILOV*

## Rubio Umarovla, Vitkoff Putinlə...

# Moskvadan öncə Floridada

Ukrayna-Rusiya müharibəsinin dayandırılması ilə bağlı danışıqlar prosesində növbəti raund baş tutub. Belə ki, noyabrın 30-da Floridada Amerika və Ukrayna nümayəndə heyətləri arasında sülh şərtləri ilə bağlı danışıqlar keçirilib. Xarici mətbuatın yazdığına görə, geniş formatda bir saatlıq danışıqlardan sonra danışıqlar daha kiçik formatda davam edib: ABŞ-ı xüsusi elçi Stiv Vitkoff, Dövlət katibi Marko Rubio və Cared Kuşner, Ukraynanı isə Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov, Baş Kəşfiyyat İdarəsinin rəis müavini Vadim Skibitski və Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Andrey Qnatov təmsil edib.

### Konstruktiv ab-hava...

Qeyd edək ki, danışıqlardan sonra çıxış edən ABŞ Dövlət katibi Marko Rubio danışıqları məhsuldar adlandırsa da, sülhə nail olmaq üçün daha çox iş görülməli olduğunu bildirib. O deyib ki, Rusiya mübahisəli məsələlərin həllində "tənliyin bir hissəsi" olmalıdır. Dövlət katibi jurnalistlərə bildirib ki, Amerika və Ukrayna nümayəndə heyətləri arasında görüşdə təkcə müharibənin bitməsi deyil, həm də uzunmüddətli təhlükəsizlik məsələləri müzakirə olunub. "Biz Ukraynaya daimi təhlükəsizliyə nail olmağa kömək etmək istəyirik. Eyni dərəcədə vacib olan isə orada yeni bir əsl rifah dövrünün başlamasını görmək istəyirik", - deyə o bildirib.

Ukrayna nümayəndə heyətinin rəhbəri, Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov da danışıqları məhsuldar və uğurlu adlandırıb. O, jurnalistlərə açıqlamasında deyib ki, məqsədimiz çiçəklənən, güclü Ukraynadır: "Biz Ukrayna üçün vacib olan bütün məsələləri müzakirə etdik. ABŞ çox güclü dəstək verdi". Umerov da Floridadakı görüşün Ukrayna və ABŞ arasında Cenevrədə keçirilən danışıqlara əsaslandığını bildirib. O, ABŞ ilə mövqelərin yaxınlaşması barədə Ukrayna Prezidenti Volodimir Zelenskiyə məlumat verdiyini söyləyib. Umerov Teleqram kanalında yazıb: "Ləyaqətli sülhün təşviqi və mövqelərimizin Amerika tərəfi ilə uyğunlaşdırılmasında əhəmiyyətli irəliləyişlər var. Kiyevin təhlükəsizlik, suverenlik və davamlı sülh kimi əsas məqsədləri dəyişməz olaraq qalır və Amerika tərəfindən bölüşülür".

### Razılaşma əldə olunmayana qədər görüş baş tutmayacaq...

Qeyd edək ki, bir neçə gün öncə ABŞ Prezidenti Donald Tramp sülh danışıqlarının gedişatını şərh edərkən bildirmişdi ki, Rusiyanın əsas güzəşti düşmənçilikləri dayandırması və daha da irəliləməkdən imtina etməsidir. O qeyd etmişdi ki, Rusiya ordusu son aylarda sürətlə irəliləyir və "daha çox Ukrayna ərazisini ələ keçirəbilər" və buna görə də sülhün əldə edilməsi lazımdır. "Onlar artıq güzəştə gedirlər. Ən böyük güzəştləri hərbi əməliyyatları dayandırmaq və daha çox torpaq ələ keçirməməkdir... Ukrayna daha kiçikdir. Onlar çoxlu insan itiriblər. Rusiya çoxlu insan itirib, amma daha çox insan resurslarına malikdir", - deyə Tramp vurğulayıb.

Tramp Zelenski ilə görüşünün şərtini də irəli sürmüşdü - bildirmişdi ki, sülh planının bütün parametrləri üzrə tam razılaşma əldə olunana qədər bu görüşün mənası yoxdur. ABŞ prezidenti sülh planını "konsepsiya" adlandırmışdı. Kiyev isə Zelenskinin Trampı şəxsi söhbətdə bir neçə bənddən imtina etməyə inandıra biləcəyinə ümid edir. Kiyev hələ də Avropa İttifaqının məsələyə aktiv müdaxiləsinə ümid edir. Təsadüfi deyildi ki, Prezident Zelenski xalqa müraciətində "biz müttəfiqlərimizə inanırıq" deyə bildirmişdi. Bu isə onu göstərir ki, Kiyev tam güzəştə getməmək üçün Qərbdən kömək gözləyir.

### Son mətn razılaşdırılmayıb...

CNN isə görüşü "sərt, lakin çox konstruktiv" adlandırıb. Kanalın mənbəyinə görə, tərəflər Rusiya-Ukrayna münaqişəsinin həllinin "ən həssas məsələlərini" müzakirə ediblər. "The Wall Street Journal" qəzeti danışıqların mövzularına ərazi məsələləri və Ukraynada seçkilərin keçirilməsinin daxil olduğunu bildirib. Qeyd edilib ki, danışıqlar təxminən 4-5 saat davam edib. Əsas mövzu gələcək sülh müqaviləsi çərçivəsində ərazi nəzarəti xətti olub. Sənədin ilkin variantı bu mövzularda heç bir qərar vermir və onun son mətni hələ razılaşdırılmayıb. Tərəflər ərazi məsələləri ilə bağlı mövqe barədə Rusiyanın mövqeyini Kiyevə çatdırıb. Amma Ukrayna ərazi danışıqlarının yalnız hazırkı cəbhə xəttindən mümkün olduğunu israr edir. Bildirilir ki, sazişin son mətni razılaşdırılmayıb, lakin tərəflər "irəli addım" atıblar. İddialara görə, Ukraynanın NATO-ya gedən yolunun açılması ehtimalı aşağıdır. Təhlükəsizlik zəmanətləri məsələsi isə tərəflərin fərqli baxışlarının mövzusu olaraq qalır. Qeyd edək ki, bundan əvvəl tərəflər Cenevrədə yenidən işlənmiş çərçivə sənədi hazırlayaraq onu 28 bənddən 19 bəndə qədər qısaltmışdılar.



ABŞ Ukrayna Silahlı Qüvvələrinin Donbasdan tamamilə çıxarılmasını tələb et-

### Tramp üçün maneə: korrupsiya...

Qeyd edək ki, Floridada keçirilən danışıqlardan sonra növbəti raundun tarixi və yeri hələ müəyyən edilməyib, lakin Ukrayna ilə ABŞ arasında işgüzar əlaqələr davam edir. Ukrayna tərəfi, həmçinin prezidentlər Vladimir Zelenski və Donald Tramp arasında sülh müqaviləsi prosesində ən yüksək səviyyədə gələcək siyasi addımları müəyyən etmək üçün şəxsi görüşün zəruriliyində israr edir. Danışıqlardan sonra Tramp sülh müqaviləsi bağlamaq üçün "yaxşı şans" olduğunu bildirib. Lakin Kiyevin "mürəkkəb kiçik problemləri" var - məsələn, onun sözlərinə görə, müharibənin bitməsinə mane olan korrupsiya qalmaqalı.

ABŞ-Ukrayna danışıqlarından sonra Prezident Zelenski özünün Telegram kanalında yazıb ki, "konstruktiv danışıqlar gedir". O, üzbəüz görüş zamanı Ukrayna komandasından tam hesabat gözləyir.




### NATO üzvlüyü məsələsi...

Ukraynanın bəzi mətbu orqanları isə yazır ki, nümayəndə heyətləri ABŞ-ın münaqişələrin həlli ilə bağlı planının heç bir əsas məqamı barədə razılığa gələ bilməyiblər. Məlumata görə, Ukrayna nümayəndə heyətinin üzvləri, digər məsələlərlə yanaşı, konstitusiya məhdudiyyətlərini əsas gətirərək Donetskdən qoşunları çıxarmaqdan imtina ediblər. Kiyev hazırkı təmas xətti boyunca atəşkəsdə israrlıdır - onlar yalnız bundan sonra Ukrayna ərazi məsələlərini müzakirə etməyə hazırdır. Bundan əlavə, Ukrayna nümayəndə heyəti planın NATO üzvü olmaq müraciətinin geri götürülməsini və bu istəkdən imtinanı özündə ehtiva edən bəndlə razılaşmayıb. Media iddia edir ki, bu məsələdə ölkə nümayəndələri yenidən alyansa qoşulmaq siyasətini təsbit edən konstitusiyaya istinad ediblər.

### Vitkoff yenidən Moskvada...

Bu arada, ABŞ Moskva ilə sıx əlaqəni davam etdirir. ABŞ-Ukrayna danışıqlarında iştirak edən Trampın xüsusi elçisi Stiv Vitkoff dünən Rusiya Prezidenti Vladimir Putinlə görüşmək üçün Moskvaya gəlib. AFP-nin mənbəyə istinadən verdiyi məlumata görə, Vitkov və Putin arasında danışıqlar dekabrın 2-də baş tuta bilər. Kremlin sözçüsü Dmitri Peskovun sözlərinə görə, danışıqların 4-5 dekabr tarixlərindən əvvəl baş tutması gözlənilir. Vitkofun Rusiyada bir sıra nümayəndələrlə, o cümlədən Rusiya Prezidentinin köməkçisi Yuri Uşakovla görüşü planlaşdırılır. Qeyd edək ki, ötən həftə ABŞ və Rusiya nümayəndə heyətləri Əbu-Dabidə görüşüblər.

*P.İSMAYILOV*

# Paşinyan II Qaregini bitirir?

Ermənistanda Paşinyan hökuməti ilə kilsə arasında gərginlik davam edir. Tərəflər arasında ziddiyyətlər Azərbaycanın İkinci Qarabağ müharibəsində erməni ordusunu məğlub etməsi və Qarabağ üzərində suverenliyini tam bərpa etməsindən sonra başlayıb. Ötən ilin may ayında Qazaxın dörd kəndinin qaytarılmasından sonra isə keşiş Baqratın rəhbərliyi altında Paşinyanın istefası tələbi ilə etiraz aksiyalarına start verildi. Lakin bir müddət sonra həmin aksiyalar fiaskoya uğradı.

### Paşinyan-kilsə qarşıdurması yeni mərhələdə

Bununla belə, Paşinyan-kilsə qarşıdurması son zamanlar yeni mərhələyə keçib. Bu dəfə N.Paşinyan kilsəyə, xüsusilə kilsənin rəhbəri II Qareginə (Ktriç Nersisyan) qarşı hücuma keçib. Məsələ ondadır ki, erməni kilsəsi ölkənin siyasi idarəçiliyinə müdaxilə etməyə çalışır, Paşinyan isə bunu qəbul etmək niyyətində deyil. Elə son çəkişmələrin də mahiyyəti və motivi bundan ibarətdir. O bildirmişdi ki, bütün ermənilərin katolikosunun seçilməsində son qərarı Ermənistan hökuməti verməlidir. O vurğulamışdı ki, Ermənistan Apostol Kilsəsinin rəhbərinin seçilməsi qaydası dəyişməlidir - dövlətin seçkilərdə həlledici səsə sahib olması və namizədlərin etik baxımdan yoxlanılması vacib şərt kimi önə çıxarılmalıdır.

N.Paşinyan Ermənistanda bəzi kilsələrin acınacaqlı vəziyyətdə olduğunu da demiş və əlavə etmişdi ki, kilsələrin əksəriyyəti tikinti tullantıları anbarı kimi istifadə edilir. Bütün bunların ardınca, baş nazir II Qaregini vəzifəyə təyin olunarkən könüllü olaraq qəbul etdiyi subaylıq andını pozmaqda ittiham edib. Paşinyan II Qareginin övladının olduğunu iddia edib və bunu sübut etməyə hazır olduğunu vurğulayıb. Daha sonra o, tələb edib ki, katolikos II Qaregin Eçmiədzinin ana taxtını tərk etməlidir. "Erməni Apostol Kilsəsi seçkilərə qədər əxlaqı təsdiqlənəcək yeni katolikosu seçməlidir", - deyən Paşinyan Erməni Apostol Kilsəsinin bütün dindarlarını "Eçmiədzin Ana Taxtına bütün ermənilərin yeni katolikosunun seçilməsi işi otrafında birləşməyə" də çağırıb. N.Paşinyan Erməni Apostol Kilsəsinin ardıcıllarına müraciət edərək bəyan edib ki, Eçmiədzin kilsəsinin hazırkı rəhbərlikdən



azad edilməsi üçün fəal addımlar atmalı və yeni katolikosluq seçkiləri təşkil olunmalıdır. Baş nazir bununla bağlı təşkilati məsələlərini tənzimləmək üçün Koordinasiya Qrupu yaratmağın vacibliyini də qeyd edib. Onun sözlərinə görə, Koordinasiya Qrupunun üzvləri kişilər, qadınlar, sadə insanlar və ya din xadimləri ola bilər. Koordinasiya Qrupuna daxil olan din xadimlərinin subaylıq andını pozmamaları məcburidir.

### II Qaregin təklənir

Paşinyanın kilsəyə hücumu fonunda ona müxalif olan bir keşişlər müxtəlif ittihamlarla həbs ediliblər. Keşiş Baqratın taleyi buna nümunədir. Hətta II Qareginin yaxınları da həbsə atılıblar. Belə ki, noyabrın 29-da Ermənistan məhkəməsi bütün ermənilərin katolikosu II Qareginin qardaşı və onun oğlunun həbs müddətini uzadıb. Gevork Nersisyanın həbs müddəti 2 ay, oğlu Ambartsumun həbs müddəti isə 3 ay uzadılıb. Ata və oğul noyabrın 3-də həbs olunub, onlar Vaqarşapatda seçkilər zamanı qərbpərəst "Respublika" partiyasının seçkiqabağı təşviqatına maneə törətməkdə ittiham olunurlar. İstintaqın versiyasına görə, noyabrın 1-də Voskexat kəndində (Vaqarşapat Ağsaqqallar Şurasına seçkilər zamanı) aparılan təşviqat kampaniyası zamanı onlar "Respublika" partiyasının nümayəndəsinə qarşı təhqiramiz ifadələr səsləndirərək kəndi tərk etməsini tələb ediblər.

Artıq keşişlər arasında Paşinyana dəstək verənlər də artır. Belə ki, bu günlərdə doqquz keşişdən ibarət bir qrup ümumermənі katolikosu II Qaregini dini müqəddəsliyə hörmətsizliyi himayə etməkdə günahlandıran bəyanat yayıb. Bildirilib ki, o, indiki baş keşiş arxiyepiskop Arşak Xaçatryanın müqəddəsliyə hörmətsizlik edən hərəkətlərini gizlətməyə cəhd göstərib. Qeyd edək ki, Xaçatryanın rahiblik qaydalarını pozan videosu yayılıb. II Qaregin də onun bu davranışını müxtəlif bəhanələrlə ört-basdır etməyə səy göstərib. Məlumata görə, Ermənistan İstintaq Komitəsinin apardığı ekspertizaya əsasən, arxiyepiskop Arşak ədəbsiz məzmunlu videoda iştirak edib. Bu video isə müxtəlif sosial şəbəkə platformalarında müzakirə olunur.





13 arxiyepiskopdan 9-unun verdiyi bəyanatında bildirilib ki, katolikosun davranışı erməni kilsəsinin kanonları və təlimləri ilə bir araya sığmır, bu da kilsə daxilində parçalanma təhlükəsi daşıyır. Onlar yepiskopları, kilsənin sadiq və sədaqətli övladlarını qətiyyətli mövqe nümayiş etdirməyə, II Qareginin yanlış kursunu qətiyyətlə pisləməyə çağırıblar. Ermənistanın baş naziri Nikol Paşinyan da arxiyepiskopların bəyanatını alqışlayaraq deyib: "Hesab edirəm ki, bu, hər şeydən əvvəl kilsəmizdə kilsənin mənəvi missiyasını həvəslə yerinə yetirən din xadimlərinin olduğunun sübut edir". Ardınca, Paşinyan bəyanata imza atan keşişlərlə görüş keçirib və görüşün videoyazısını özünün sosial şəbəkə hesabında yayımlayıb. Keşişlər görüş zamanı baş nazirin tələblərində haqlı olduğunu bildiriblər.

### Yeni katolikos kim olacaq?

Proseslər Paşinyanın II Qareginlə mübarizədə üstünlük qazandığını göstərir. Belə olan halda, yeni ümumermənі katolikosu kim ola bilər? Yerli mətbuatın yazdığına əsasən, hakimiyyətin özü üçün iki namizədi var. Media yazır ki, Nikol Paşinyanın hökuməti artıq bütün ermənilərin katolikosu postuna mümkün namizədin adı ilə bağlı qərar verib. ABŞ-ın Qərbi Ermənistan Yepiskopluğunun rəhbəri arxiyepiskop Ovnan Terteryan və Kilikiya Böyük Evinin Katolikosu I Aram başlıca namizədlər kimi nəzərdən keçirilir. Mövcud hökumət II Qareginin mandatı bitdikdən sonra Erməni Apostol Kilsəsində gördüyü yeni azad fəaliyyət sahəsini və təsirin yenidən bölüşdürülməsini təmin edə bilər. Bildirilib ki, hüquq-mühafizə orqanları artıq yepiskopluq rəhbərlərinin, o cümlədən arxiyepiskopların iclası nəticəsində dərc edilmiş bəyanatı imzalayanlar və imzalamayanların fərdi məlumatlarını araşdırır.

Bununla belə, Ermənistan cəmiyyətində II Qareginin tərəfdarı olan tərəflərdə var. Onların prosesə necə müqavimət göstərəcəyini söyləmək hələ ki, çətindir. Qeyd edək ki, Ermənistan cəmiyyətində bu qarşıdurma təkcə dini və mənəvi məsələlərlə məhdudlaşmır. Erməni ekspertlər Paşinyan və kilsə arasında gərginliyi gələn il keçiriləcək parlament seçkiləri ilə əlaqələndirirlər. Belə ki, kilsə Paşinyana müxalif olan revanşist qüvvələrlə işbirliyindədir. Paşinyan isə seçki öncəsi bu düşərgəni zəifləməyə və ictimai nüfuzlarını sarsıtmağa çalışır. Görünən odur ki, erməni baş nazir II Qaregini postundan uzaqlaşdırana qədər mübarizəni davam etdirəcək.

*Nardar BAYRAMLI*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# 40 milyondan çox insan qul kimi yaşayır...

Bu gün milyonlarla insan görünməz zəncirlərlə bağlanıb: Kimisi zorla işlədilir, kimisi borc bataqlığında boğulur, kimisi də ticarətin ən qaranlıq sahələrində satılır. Hər il milyonlarla insan alver, zor gücünə cəlbetmə, yaxud digər məcburiyyət metodları nəticəsində istismaredici əmək şəbəkəsinin cənginə keçir, bu asılılıqdan can qurtara bilmir. Yüz minlərlə adam istismaredici əmək sistemi olan emalatxanalarda, tarlalarda, şaxtalarda əldən düşənə qədər işləyir, yaxud evlərdə onlardan hüquqsuz işçi qüvvəsi kimi istifadə olunur.

Dekabrın 2-si köləliyin ləğv edilməsi uğrunda beynəlxalq mübarizə günüdür. Bu tarix Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının insan alverinə qarşı mübarizə haqqında konvensiyanı qəbul etməsi ilə bağlıdır. Bu gün ilk dəfə 1949-cu ildə qeyd olunub.

## Köləlik nədir?

Köləlik bəşər tarixinin ən böyük utanclarından biridir. Təəssüf ki, köləlik qədim dövrlərdən başlayaraq əsrlərlə davam edib. Dünyanın bir çox yerində yaşanan köləlik, avropalıların Yeni Dünyanı kəşf etməsi ilə fərqli bir məcraya keçib. Afrika qitəsindən milyonlarla insan qeyri-insani üsullarla Amerikaya qul kimi aparılıb.

## Necə başladı?

Qədim dövrlərdə insanların yalnız öz həyatlarını təmin etmək üçün istehsalla məşğul olduqları zaman köləlik yox idi. Zaman keçdikcə insanlar istehlak edə bildiklərindən daha çox istehsal etməyə başladılar. Köləlik hərbi əsirlərin istehsalatda istifadə etmək üçün işləməyə başladığı zaman yarandı.

## İslamdan əvvəl və sonra...

İslamdan əvvəl Ərəbistanda və dünyada quldarlıq geniş yayılmışdı. O zamanlar azad insanın malı sayılan və heç bir hüququ olmayan qadınlara “cariyə”, kişilərə isə “qul” deyilirdi. İnsanların cariyələrə və qullara baxışı, onlara verdiyi hüquqlar və davranış tərzi bölgələrə görə fərqlənirdi.

Köləliyin tamamilə ləğvi bir çox iqtisadi və sosial problemlərə səbəb ola bilərdi. Buna görə də İslam əvvəlcə qulların həyat səviyyəsini yaxşılaşdırmağı, sonra isə onlara öz iradəsi ilə çalışaraq və əvəzini ödəməklə azad olmağı hədəfləyən bəzi hüquqlar verdi. Vaxt keçdikcə müxtəlif qaydalar müəyyən edildi, eyni zamanda, quldarlığın tamamilə ləğvi üçün tədbirlər görüldü.

## Köləliyin ləğv edilməsi ideyası necə yarandı?

Köləliyin ləğvi ideyası ilk olaraq Böyük Britaniya, Kanada, Fransa və Rusiya kimi ölkələrdə təsdiqlənib. Beynəlxalq “Anti-Köləlik Təşkilatı” (“Anti-Slavery International”) 1839-cu ildə Böyük Britaniyada yaradılıb. Birləşmiş Ştatlarda köləliyin ləğvi mahiyyətcə köləliyi günahlandırmaq və sosial düşüncəni ona qarşı çevirməkdən ibarət idi. Hələ 1830-cu illərdə köləliyə qarşı cərəyan şimal ştatlarında genişmiqyaslı xarakter almışdı. 1859-cu ildə isə Virciniya ştatında Con Braunun başçılığı ilə köləliyin ləğvi üçün üsyan başlandı. ABŞ-da 1861-1865-ci illəri əhatə edən vətəndaş müharibəsi başa çatdıqdan sonra qanuni köləlik ləğv edildi. Köləliyin ləğv edilməsində ABŞ-ın 16-cı prezidenti Abraham Linkolnun mühüm rolu olmuşdu.

## Köləliyin ləğv edilməsi ilə bağlı ilk qanunlar

Köləliyin qadağan edilməsi ilə bağlı ilk qanunlar 19-cu əsrin birinci rübündə İngiltərə və ABŞ-da qəbul edildi, sonra digər Avropa ölkələri də buna əməl etdilər. İngiltərədən sonra 1857-ci ildə Osmanlı İmperiyası köləliyi ləğv edən ilk ölkə oldu.

1926-cı ildə Millətlər Liqası bütün dünyada köləliyi qadağan etdi və daha sonra Birləşmiş Millətlər Təşkilatı bu müddəanı təsdiqlədi.

Köləlik dünyanın bütün cəmiyyətlərində və müxtəlif formalarda mövcud olub. Tarix boyu köləliyin ən böyük nümunəsi isə 400 ildən çox davam edən və milyonlarla afrikalının əsir götürülərək Amerika, Karib dənizinə aparıldığı “Transatlantik qul ticarəti” sayılır.



## Danimarka ilk oldu

Avropa dövlətlərində qul ticarətini qadağan edən ilk ölkə isə Danimarka oldu. Bu, 1792-ci ildə baş verdi.

1807-ci ildə isə Britaniya koloniyalarında və 1808-ci ildə ABŞ-da qul ticarəti qadağan edildi. Amma qadağalara baxmayaraq, qullar azad edilmədi.

Beləliklə, 19-cu əsrdə dünyanın əksər ölkələrində köləlik ləğv edildi. Bununla belə, bəzi ölkələrdə köləlik 20-ci əsrə qədər davam etdi. Dünyada köləliyin rəsmi olaraq ləğv edildiyi sonuncu ölkə isə Mavritaniyadır.

## İspaniyadan yekun qərar

İspan müstəmləkələrində və müstəqillik əldə etmiş Cənubi Amerika ölkələrində də köləliyin qəti şəkildə ləğvi baş verdi. 1811-ci ildə İspaniya və Çilidə köləlik ləğv edildi. 1817-ci ildə Argentinada, 1821-ci ildə Peruda, 1829-cu ildə Meksikada köləlik qadağan olundu.

Köləlik dünya üzrə yasaqlanmış olsa da, yeni formaları ilə “modern köləlik” bəşəriyyətin ən böyük problemlərindən biri olaraq qalır. Modern köləliyə, əsasən, az gəlirli və qarşıdurmaların çox olduğu bölgələrdə rast gəlinsə də, iqtisadi baxımdan inkişaf etmiş ölkələrdə də var.

## “Modern köləlik”

Tailandda balıqçılıq, Şimali Koreyada kömür mədənləri, Fil Dişi sahilində kakao becərilməsi, Braziliyada mal-qara otlaqları ilə yanaşı, Avstraliyada bəzi diplomatların evlərində və İngiltərədə avtoyuma mərkəzlərində modern kölələrlə qarşılaşmaq mümkündür. Modern köləlik qurbanlarının 71 faizini qadınlar və uşaqlar, 29 faizini kişilər təşkil edir. Modern kölələrin 15,4 milyonu zorla evləndirilənlər, 24,9 milyonu isə zorla işlədilənlərdir.

Dünyada hər min nəfərdən beşi modern köləliyin qurbanıdır. Köləliyə dair əldə edilmiş məlumatlara görə, Afrikada hər min nəfərin 7,6-sı, Şərqi Asiyada 6,1-i, Avropa və Orta Asiyada 3,9-u modern kölədir.

Köləlik artıq qeyri-qanuni sayılsa da, bu gün dünyada 40 milyondan çox insanın qul kimi yaşadığı təxmin edilir.

***Yeganə BAYRAMOVA***

# Ailə dəyərləri ilə virtual aləmin savaşı

## Sosial şəbəkələr boşanma səbəblərindən biridir, amma...

Müasir dövrün boşanma səbəbləri artıq əvvəlki kimi deyil. Vaxtilə ailədaxili problemlər daha çox iqtisadi çətinliklər, xarakter uyğunsuzluğu ilə əlaqələndirilirdisə, bu gün həmin siyahıya yeni bir səbəb əlavə olunub. Bu, sosial şəbəkələrdir. Texnologiyanın gətirdiyi rahatlıq, eyni zamanda, ailə münasibətlərini sarsıdan görünməz divarlara çevrilə bilir.

Sosial şəbəkələrin yaratdığı ideal həyat təsvirləri də münasibətlərə ağır zərbə vurur. İnsanlar real həyatla virtual “mükəmməllik” arasında ilişib qalır. Başqasının xoşbəxt anlarını görən şəxs özü də fərqinə varmadan ailəsini həmin kadrlardakı “idealla” müqayisə edir. Bu isə narazılıq, məyusluq və nəticədə münasibətdə soyuqluq, problemlər yaradır.

Bütün bunlara baxmayaraq, sadəcə sosial şəbəkələri günahlandırıb məsələni sadələşdirmək də doğru olmazdı. Əslində, problem heç də texnologiyadan deyil, ondan necə istifadə olunmasındadır. Ailə institutunu və ailə dəyərlərini qorumaq hər birimizin əlindədir.

Dövlət Statistika Komitəsinin (DSK) son hesabatına əsasən, bu ilin 9 ayı ərzində 36332 nikah və 15480 boşanma halı qeydə alınıb.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,8-dən 4,7-yə, boşanmaların sayı isə 2,1-dən 2,0-a düşüb.

## Ailələrə müdaxilələr həddindən artıqdır...

Mövzu barədə “Yeni Azərbaycan”a danışan psixoloq Elnur Rüstəmov bildirib ki, boşanmaların tək səbəbi sosial şəbəkələrin yaratdığı problemlər deyil. Onun sözlərinə görə, ümumiyyətlə, son dövrlərdə nikaha dayanıqlı ailələr azdır: “Ailədaxili problemlər əvvəlki illərdə də çox olmasına baxmayaraq, son dövrlər insanların bir-birinə olan dözümsüzlüyü daha çox boşanmalarla nəticələnir. Onu da bildirim ki, bu gün problemli ailələr çoxdur. Bundan başqa, ailələrə müdaxilələr də həddindən artıqdır. İnformasiya əsrində yaşayırıq. Bu da, boşanmaların sayını artırır. Biri deyir ki, telefonunda mesaj tutdum, o biri deyir kiminləsə yazışdığını gördüm, digəri isə kiminsə şəklini bəyəndəyini gördüyünü bildirir. Onu da deməliyəm ki, bu gün Azərbaycanda təkrar ailə quranların sayı da həddən artıq çoxdur. Amma, boşanma baş verən ailələrdə uşaqlar varsa, bu prosesdən ən çox təsirlənən məhz onlar olurlar”.



## Tərəflər bir-birinin fikrinə önəm vermir...

Sosioloq Sahib Altayın fikrincə, boşanmaların əsas səbəblərindən biri bəzi ailələrdə kişilərin xanımlarının fikirini nəzərə almamasıdır: “Təəssüflər olsun ki, bu, bir çox ailədə var. Kişi həyat yoldaşını nəzərə almır, onu fikirinə önəm vermir. Sanki qadın evdə quldur, kişi də onun ağası. Xanım tədricən bu vəziyyətdən yorulur və boşanmaq qərarına gəlir. İkinci məqam isə bəzi hallarda qeyd etdiyim halın əksinin olmasıdır. Belə ki, xanım həyat yoldaşına dəyər vermir. Bu da müəyyən problemlərə, münasibətlərdə soyuqluğa və sonda boşanmalara gətirib çıxarır”.

## Səbəblər ciddi şəkildə araşdırılmalıdır

Psixoloq qeyd edib ki, həmin uşaqlar cəmiyyət üçün gələcəkdə potensial təhlükədir: “Burada söhbət cinayətdən getmir. Valideynləri boşanmış uşaqların aldıqları travmalar onların gələcəyi ilə bağlı müəyyən narahatlıqverici məqamlar yarada bilər. Bu proses bu gün də davam edir və hər ötən gün artır. Bəzən tərəflərdən biri heç məhkəməyə gəlməsə də, boşanma baş tutur. Ancaq məsələ ciddi araşdırılmalıdır. Bəlkə məhkəmə qarşısına çıxan cütlük heç boşanmaq istəmir, onlara təzyiq edilir? Ona görə də boşanma səbəbləri ciddi şəkildə araşdırılmalıdır”.

## Maddi sıxıntı boşanmaya səbəb deyil

Sosioloq qeyd edib ki, boşanmaların digər səbəbi istər kişi, istərsə də qadının ailə psixologiyasından xəbərdar olmaması və ailə məsuliyyətini anlamamalarından irəli gəlir: “Ailə bir məsuliyyət öhdəliyidir. Hər iki tərəf bunu başa düşməlidir. Bir çox ailələrdə problem tərəflərin öhdəlikləri dərk etməməsindən yaranır. Amma xırda bir problem görən kimi də qərara alırlar ki, boşanaq. Halbuki ailədə əzab-əziyyət də olar. Əgər problemin öhdəsindən gələ bilmirlərsə, çıxış yolu o deyil ki, dərhal məsuliyyətdən qaçmaq lazımdır”

Sosioloqun fikirincə, boşanmaların səbəbləri maddi sıxıntı deyil: “Bir çox ailələrdə maddi sıxıntı yoxdur, amma yenə də boşanma halları baş verir”.

***Yeganə BAYRAMOVA***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4787**
**Sifariş: 2472**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova